# İyunun 17-dən Həcc ziyarəti başlayır



**Azərbaycandan Həcc missiyası xətti ilə zəvvarlarımız iyun ayının 17-dən başlayaraq Səudiyyə Ərəbistanına müqəddəs Həcc ziyarətinə səfər edəcəklər.**

Qafqaz Müsəlmanları İdarəsinin mətbuat xidmətindən verilən xəbərə görə, 1440 azərbaycanlı zəvvar 8 təyyarə reysi ilə 17-21 iyun tarixlərində ziyarətə yola düşəcək.

*Həcc ziyarətinin başa çatmasından sonra zəvvarlar təyyarə reysləri ilə 5-11 iyul tarixlərində Vətənə qayıdacaqlar.*



## Qubanın icra başçısı vəzifəsindən azad olunub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Z.İ.Əliyevin Quba Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad olunması haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Ziyəddin İsmayıl oğlu Əliyev Quba Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.


❒ № 104 (5865) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 15 iyun 2023-cü il (cümə axşamı)





# Millətimizin qurtuluşu...

## 15 iyun tarixindən ibrət alınası çox məsələlər var

**“1997-ci ildə Milli Qurtuluş Günü bayramı elan edilən 15 iyunun mahiyyətini, onun nəticələrini dərk etmək və müvafiq nəticələr çıxararaq ibrət dərsləri almaq müstəqil dövlətimizin, millətimizin keçdiyi yolu, mövcud vəziyyətini, gələcək inkişaf perspektivlərini müəyyənləşdirmək baxımından vacibdir”.**

*Bunu ”Sherg.az”a açıqlamasında professor, millət vəkili Musa Qasımlı 15 iyun Qurtuluş Gününün Azərbaycanın siyasi tarixindəki rolundan danışarkən deyib.*

O bildirib ki, həmin dövrdə Azərbaycan xalqı düşmüş olduğu vəziyyətdən çıxmaqdan ötrü nicat yolu arayıb:

”Adamlar sual edirdilər: Azərbaycan xalqının və dövlətinin taleyi necə olacaq? Ölkəni ağır şəraitdən kim və necə çıxara bilər?

(səh.5)



# Şahbaz Şərifin Bakı səfərinin siyasi əhəmiyyəti böyükdür

## Gələcəkdə Azərbaycan-Pakistan-Türkiyə birliyi inkişaf edən siyasi xətt üzrə hərəkət edəcək

**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif iyunun 14-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşıladılar.

(səh.3)

# Daha 22 ailə Laçına qayıdıb

## 72 nəfər doğma yurda qovuşmağın sevincini yaşayıb



**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq bərpa edilən və yenidən qurulan Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı davam edir. İyunun 14-də növbəti köç karvanı Laçına çatıb.**

72 nəfər olmaqla, daha 22 ailə doğma yurda qovuşmağın sevincini yaşayıb. Laçın şəhərinə, öz doğma evlərinə dönən sakinlər əlamətdar gündə sevinc göz yaşlarını saxlaya bilməyiblər.

(səh.2)

# Rusiya təşvişdədir

## Turan ordusu üçün addımlar atılır



**İyunun 13-ü saat 17:40-da Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini minaatanlar da daxil olmaqla iriçaplı silahlardan atəşə tutub.**

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. Ordumuzun bölmələri tərəfindən cavab tədbirləri görülür. Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Bildiririk ki, bölgədə vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Sual yaranır ki, Türkiyə Prezidentinin Azərbaycan səfəri ərəfəsində, belə bir təxribatın törədilməsi nəyə hesablanıb? Ermənistan rəhbərliyi gözdağı verməyə çalışır?

**Hadisəni şərh edən hərbi ekspert Alparslan İmamqulu ”Şərq”ə söyləyib ki, Vətən müharibəsindən sonra Türkiyə ilə münasibətlər Şuşa bəyannaməsi ilə tənzimlənib:** ”Bu isə region dövlətlərində, xüsusən də Rusiya və Ermənistanda ciddi narahatlıqlar yaratdı. İndi Ərdoğanın yenidən Prezident seçilməsi növbəti mərhələdə Azərbaycan və Türkiyə arasındakı əlaqələrin daha da inkişaf etdirilməsi mənasına gəlir. Həmçinin gələcəkdə Turan ordusunun qurulması istiqamətində də qətiyyətli addımlar atılır.

(səh.4)

# Əsir hərbçimiz ailəsinə zəng etdi

## BQXK nümayəndələri Ermənistanda əsir saxlanılan iki əsgərimizə baş çəkib





**Ermənistanda əsir saxlanılan hərbiçilərimizdən biri ailəsinə video zəng edib.**

Bu barədə Trend-in sorğusuna cavab olaraq Beynəlxalq Qızıl Xaç Komitəsindən bildirilib.

Qeyd edilib ki, Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nümayəndələri iki Azərbaycan vətəndaşına baş çəkib, ailələri ilə əlaqə yaratmaq imkanı verilib.

Xatırladaq ki, Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhəd ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin əsgərləri - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu itkin düşüb.

Daha sonra Ermənistan tərəfindən əsir götürülmüş əsgərləri Bəbirov Aqşin Qabil oğlu və Axundov Hüseyn Əhliman oğluna qarşı Ermənistanın qurama ”məhkəmə prosesi”ni və Aqşin Bəbirovun həbsi ilə bağlı qondarma ”qərar” verilib.




# Şuşada konsulluğun açılması reallaşır

## Qarabağda yarımçıq qalmış bütün məsələlər həll olunacaq, Türkiyə də işin içindədir

**“Azərbaycanla münasibətlərimizi bütün sahələrdə inkişaf etdirməkdə qərarlıyıq”.**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 13-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə geniş tərkibdə görüşü zamanı deyib. Onun sözlərinə görə, bu gün Türkiyə-Azərbaycan qardaşlığı dünyada qibtə ilə izlənilir:

(səh.4)

# Vəfat edən olmayıb

## Daha 2 yeni yoluxma faktı qeydə alınıb



Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət

| Ümumi | | Bu gün 14.06.2023 | |
|---|---|---|---|
| Ümumi yoluxanların sayı | 831 884 | Yeni yoluxanların sayı | 2 |
| Ümumi sağalanların sayı | 821 589 | Yeni sağalanların sayı | 5 |
| Aktiv xəstə sayı | 14 | Bugünkü test sayı | 1 200 |
| Ümumi test sayı | 7 634 759 | Bugünkü ölüm sayı | 0 |
| Ümumi ölüm sayı | 10 281 | | |

Koronavirus İnformasiya Portalı · koronavirusinfoaz · KoronaVirus İnformasiya portalı · KoronaVirus info

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 yeni yoluxma faktı qeydə alınıb, 5 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

*Azərbaycanda indiyədək ümumilikdə 831 884 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 821 589 nəfər müalicə olunaraq sağalıb, 10 281 nəfər vəfat edib, aktiv xəstə sayı 14 nəfərdir.*

# Tədris ilinin başlama vaxtı dəyişdirilməyəcək

## Nazirlikdən bildiriblər ki, bu məsələ müzakirə mövzusu deyil



**Sosial Tədqiqatlar Mərkəzi dərs ilinin nə vaxt başlaması ilə bağlı sorğu keçirib. Sorğuda iştirak edənlərin əksəriyyəti dərslərin sentyabrın 1-də başlamasını dəstəkləyib.**

Məsələ ilə bağlı Elm və Təhsil Nazirliyindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, bu məsələ Nazirlikdə müzakirə mövzusu deyil.

*Qeyd edək ki, sorğunun nəticələrinə əsasən respondentlərin 68,1%-i dərslərin sentyabrın 1-də, 24,7%-i isə sentyabrın 15-də başlamasının daha məqsədəuyğun olduğunu qeyd edib. Rəyi soruşulanların 7,2%-i bu mövzu ilə bağlı fikir bildirməkdə çətinlik çəkib.*



# Valyuta məntəqələrinin yaradılması günün tələbidir

## Bu mühit formalaşmazsa, “qara bazar” daha da inkişaf edəcək

(səh.4)



# Putin Azərbaycana yeni səfir göndərdi

## Mixail Yevdokimov özündən əvvəlki diplomatlara bənzəməyəcək, diqqətimiz onun üzərində olmalıdır

(səh.5)




# "Heydər Əliyev xalqını ən ağır dövrlərdə fəlakətlərdən qurtardı"

## Parlamentdə Ulu Öndərin 100 illiyinə həsr olunan xüsusi iclas keçirilib

**Milli Məclisdə Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan xüsusi iclas keçirilib. Parlament sədri Sahibə Qafarova Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə parlamentin sədri kimi fəaliyyəti haqqında danışıb. Bildirib ki, ümummilli liderlər xalqların milli fəlakətlər, mənəvi sarsıntılar ilə üzləşdiyi dövrlərdə tarix səhnəsinə çıxırlar. Bu fikrin doğruluğunu Ulu Öndər Heydər Əliyevin fəaliyyəti də sübut edir:**

”Heydər Əliyev ən yüksək dövlət vəzifələrində çalışdığı otuz ildən artıq bir müddətdə ümummilli lider missiyasını iki dəfə öhdəsinə götürüb. Hər ikisində də zamanın çağırışlarına yaradıcı münasibət bildirməklə və düzgün qərarlar qəbul etməklə insanların ona bəslədiyi ümidləri doğruldub. Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin təməlini yaradıb, daha sonra isə bu təməl üzərində qurulan müstəqil dövləti qoruyub saxlayıb və davamlı inkişaf yoluna çıxarıb. Bununla da o, böyük tarixi şəxsiyyətlərimizin dövlətçilik ənənələrini iyirminci yüzillikdə layiqincə davam etdirib və zənginləşdirib. Heydər Əliyev dünyamiqyaslı siyasi və dövlət xadimi idi. Onu dünyanın ən böyük siyasətçiləri və dövlət adamları ilə müqayisə etmək olar. Ulu Öndər xalqımızın siyasi varlığını qoruyub saxlamış və xoşbəxt gələcəyinin möhkəm təməlini yaradıb. Onun həyatı və fəaliyyəti doğma xalqına sədaqətlə xidmət etmək, onun yolunda hər cür çətinliklərə dözmək nümunəsinə çevrilib”.

### “Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi Ümummilli Lideri var”

Deputat Siyavuş Novruzov deyib ki, Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi Ümummilli Lideri var: ”Hər bir xalqa Ümummilli Lider nəsib olmur. Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi Ümummilli Lideri var. Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında etdiyi xidmətlər, gördüyü işlər hələ uzun illər gələcək nəsillər tərəfindən deyiləcək”. O bildirib ki, Heydər Əliyev unikal şəxsiyyət idi. Onun sözlərinə görə, Heydər Əliyev dünyaya sübut etdi ki, vəzifəsindən, zamanından, tarixindən, yaşından asılı olmayaraq, harada işləməsinə baxmayaraq, öz xalqına xidmət etmək olar: ”Heydər Əliyevi ayrı-ayrı tarixi şəxsiyyətlərlə müqayisə edirlər. Məsələn, Atatürk hakimiyyətə gələndə 100 generalı var idi. Heydər Əliyev hakimiyyətə gələndə xəzinə bomboş idi, Milli Ləl-Cəvahirat Fonduna süpürgə çəkmişdilər. Azərbaycanda ayrı-ayrı siyasi partiyaların batalyonları, şəxsi qoşunları var idi. Heydər Əliyev 1992-ci ildə azad seçki istəyirdi, konstitusiyaya əlavə etdilər ki, 65 yaşından yuxarı şəxs seçilə bilməz. Adətən aşağı yaş həddi ola bilər, yuxarı yaş həddi harada görünüb ki, Heydər Əliyevə qarşı bu addımları atdılar. Bu zalda Heydər Əliyevin çörək, vəzifə verdiyi insanlar Ulu Öndər öz təcrübəsini bölüşmək istəyəndə, Qarabağın xilas yollarını deyəndə, ayağını yerə döyərək reqlament deyib qışqırmağa başladılar. 6 dəfə Heydər Əliyevə və Prezident İlham Əliyevə qarşı dövlət çevrilişinə cəhd ediblər. 1992-ci ildə Naxçıvanda Heydər Əliyevi fiziki cəhətdən məhv etmək istəyirdilər. Sevinirəm ki, digər cəbhədən olan nümayəndələrimiz artıq Heydər Əliyev həqiqətini etiraf edirlər ki, vaxtında düzgün qərar qəbul etmədilər. Bəli, vaxtında düzgün qərar qəbul etsəydilər, Heydər Əliyev hakimiyyətə gəlsə idi, Azərbaycan bu qədər problem yaşamazdı. Xoşbəxt adamam ki, həmişə Heydər Əliyevin səlahiyyətli nümayəndəsi olmuşam”.

### “Onun ən böyük missiyası müstəqil, güclü dövlət yaratmaq, bu xalqı xoşbəxt görmək missiyası idi”

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, Heydər Əliyev xalqını ən ağır dövrlərdə fəlakətlərdən qurtararaq xilaskarlıq missiyasını ləyaqətlə yerinə yetirdi. Onun sözlərinə görə, Ulu Öndərin Azərbaycan tarixində və taleyində yeri və rolu tarixçilər, politoloqlar, filosoflar tərəfindən uzun illər araşdırılacaq, öyrəniləcək, dəyərləndiriləcək: ”Lakin Ulu Öndərin müasirləri olaraq dəqiq bilirik ki, Heydər Əliyev olmasaydı, bugünkü Azərbaycan dövləti də olmayacaqdı, nəinki müstəqil qüdrətli bir dövlət yaratmaq bizə nəsib olacaqdı, hətta ola bilsin ki, indiki müstəqilliyimiz və ərazimiz çərçivəsində yaşamağımız da böyük sual altında olacaqdı”. M.Quliyev bildirib ki, Heydər Əliyev yer üzünə xüsusi missiya ilə göndərilmiş, tanrının sevib seçdiyi böyük dövlət xadimi, xarizmatik şəxsiyyətdir: ”Onun ən böyük missiyası canından əziz sevdiyi doğma xalqına müstəqil, güclü dövlət yaratmaq, bu xalqı xoşbəxt görmək missiyası idi. O sanki Azərbaycana xilaskar olaraq göndərilmişdi və xalqını ən ağır dövrlərdə fəlakətlərdən qurtararaq xilaskarlıq missiyasını ləyaqətlə yerinə yetirdi”. Komitə sədri vurğulayıb ki, Heydər Əliyevin digər bir tarixi missiyası birləşdiricilik missiyası idi: ”Heydər Əliyev bu gün hamımızın qürur duyduğumuz müstəqil, müasir Azərbaycan dövlətinin möhkəm özüllər üzərində bünövrəsini qoydu, onun siyasi-ideoloji inkişaf konsepsiyasını yaratdı. Bütün dünya azərbaycanlılarını müqəddəs üçrəngli bayrağımızın altında birləşdirən azərbaycançılıq ideologiyasını hazırladı. Ulu Öndərin növbəti missiyası quruculuq missiyası idi. O həm Sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində güclü Azərbaycan yarada bildi. İctimai, siyasi, iqtisadi, sosial, mədəni humanitar həyatımızın elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyevin sözü, əməli, imzası olmasın. Heydər Əliyev həm də Azərbaycan parlamentarizminin müasir əsaslarını formalaşdırmış, parlament davranışı və mədəniyyəti ənənəsini yaratmış böyük dövlət xadimidir. Xalqını öz ətrafında birləşdirərək doğru yolla irəli aparmaq Ulu Öndərin liderlik missiyası idi”.

### “Parlamentin vahid dövlətçilik mövqeyindən çıxış etməsi müasir dövlət quruculuğumuzun uğurudur”

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qeyd edib ki, parlamentin vahid dövlətçilik mövqeyindən çıxış etməsi müasir dövlət quruculuğumuzun uğurudur. Onun sözlərinə görə, Heydər Əliyevin 100 illiyi və Milli Qurtuluşun 30 illiyi tədbirləri müasir parlamentarizm tarixinin ən parlaq hadisələri kimi yadda qalacaq: ”Əgər 30 il əvvəl bu salonda bir qrup vətənpərvər deputat Heydər Əliyevi sədaqətlə müdafiə edirdilərsə, digərləri özünü xilas etməyə görə, bəziləri də konyunktura naminə çıxış edirdilər. 1990-cı ildə bütün təhdidlərə və təzyiqlərə baxmayaraq, Heydər Əliyev Bakıya qayıdarkən təəssüf ki, Bakıda Moskvadakından daha təhlükəli təqiblərlə üzləşdi. Heydər Əliyev bütün təhdidlərə baxmayaraq, cəsarətlə milli xəyanətkarların cavabını verirdi. Çünki Heydər Əliyevin gücü başqaları kimi vəzifədə deyil, polad iradəsində və xalqın ona inamında idi”. O qeyd edib ki, Milli Qurtuluş Qarabağın işğaldan qurtuluşunun başlanğıcı oldu: ”Azərbaycan o illərdə özünə yad populist, qaragüruh qüvvələrdən qurtularaq dövlətçilik və azərbaycançılıq təfəkkürünə qayıtdı. Azərbaycan xarici və daxili düşmənlərin müdaxiləsinə son qoyaraq tarixi hadisələrin gedişatını öz təbii axarına qaytardı. Azərbaycan demokratiya şüarları ilə hakimiyyətə gəlmiş diktatura rejimindən qurtulmuş oldu. Azərbaycan xalqı qəlbində yaşatdığı azadlıq və müstəqillik simvolu - Heydər Əliyev ilə yenidən qovuşdu. Heydər Əliyevin qayıdışı və Milli Qurtuluşla nəhayət ki, Azərbaycanda əsl milli müstəqil hakimiyyət quruldu”.

### “Ulu Öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir”

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova bəyan edib ki, Ulu Öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Onun sözlərinə görə, bu dahi insanın bir amalı var idi: ”Azərbaycanı tam, xoşbəxt, güclü görmək. Bunun üçün də çalışırdı, hətta deyərdim ki, mübarizə aparırdı. Ulu Öndər tarixi varislik prinsiplərini əsas götürməklə bir çox mühüm siyasi, tarixi, strateji, iqtisadi əhəmiyyət kəsb edən məsələləri yenidən canlandırdı. Nümunələr saysızdır. Heydər Əliyev fiziki varlığını təhlükə qarşısında qoyaraq öz millətinə xidmət etməyi hər şeydən üstün tutdu. Bu yolda heç bir çətinlikdən qorxub çəkinmədi”. H.Hüseynova bildirib ki, Ulu Öndərin siyasətini, arzularını ləyaqətlə davam edən Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan regionun ən güclü və suveren dövlətinə, eləcə də yüksək beynəlxalq nüfuza malik olan ölkəyə çevrilib: ”30 ilə yaxın davam edən erməni işğalına son qoyulub, Qarabağ və Şərqi Zəngəzur işğaldan azad olunub. Tam əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev dövlətimiz qarşısında taleyüklü məsələləri xalqımızın dəstəyi ilə başa çatdıracaq, Ulu Öndər Heydər Əliyevin müstəqil dövlətçilik irsini özquruculuq fəaliyyəti ilə daha da zənginləşdirəcək”.

### “Ulu Öndər Heydər Əliyev müasir müstəqillik təfəkkürümüzün banisidir”

Deputat Bəhruz Məhərrəmov qeyd edib ki, Ulu Öndər Heydər Əliyev müasir müstəqillik təfəkkürümüzün banisidir. Bu gün Heydər Əliyevin davam edən yolu, suverenliyin və tərəqqinin yeganə qarantıdır. O xatırladıb ki, Ulu Öndərin 1987-ci ildə siyasi hakimiyyətdən ədalətsiz formada uzaqlaşdırılması xalqın sovetlərə inamının itməsi ilə nəticələnib: ”Azərbaycanın müasir müstəqillik yolu da məhz bu qırılma nöqtəsindən başlanır. Heydər Əliyevin böyük tarixi cılız adamların yazdığı və yazdırdığı ”tarix kitablarına” sığışa bilməzdi. Çünki o, özü elə tarix yaradan dahi idi və bunu hər kəs qəbul edib və edir”. Deputat bildirib ki, istər XX əsrin əvvəlində, istərsə də XX əsrin sonunda onların istinad etdiyi şəxslərin, heç birinin özünün siyasi yolu olmayıb, amma Heydər Əliyevin yolu var: ”Çünki əgər hansısa siyasi xətt, ideya davam edirsə, bu yoldur, amma etiraf edək ki, nə qədər mütərəqqi olur olsun, siyasi ideyalar faydalı formada davam etmirsə, bu artıq dalandır, yol deyil. Bu gün Heydər Əliyevin davam edən yolu, suverenliyin və tərəqqinin yeganə qarantıdır”.

### “Heydər Əliyev zamanın səviyyəsindən yüksək şəxsiyyət idi”

Deputat Tahir Mirkişili vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyev zamanın səviyyəsindən yüksək şəxsiyyət idi. O xatırladıb ki, 80-ci illərin sonu və 90-cı illərin əvvəli ölkənin səbatsız rəhbərliyinin fəaliyyəti nəticəsində yenidən dağılmağa, iflas olmağa başlayan Azərbaycanı Heydər Əliyev artıq 2-ci dəfə, bu dəfə müstəqil olmağı bəyan etmiş Azərbaycanı yox olmaqdan xilas edib və onu müstəqil edib. Komitə sədri bildirib ki, Heydər Əliyev əvvəlcə Naxçıvanda milli bayrağımızı dalğalandırmaqla bu dəfə insanlarda müstəqillik inamını öz şəxsinə olan inamın hesabına gücləndirməyə nail olub: ”Daha sonra 1993-cü ildən Azərbaycana rəhbərlik etməklə sonrakı 10 il ərzində Azərbaycanın əbədi müstəqilliyi üçün möhkəm və sarsılmaz iqtisadi zəmin yaratdı. Elə bir iqtisadi zəmin ki, Azərbaycanı dünyanın iqtisadi cəhətdən ən sürətli inkişaf edən ölkəsinə çevirdi. O, şəxsiyyətinə olan inam və öz şəxsi zəmanəti hesabına Azərbaycan iqtisadiyyatını dünyaya inteqrasiya etdi, kəmərlər, yollar inşa etdi. Azərbaycanı parçalamaq, zəif görmək, milli ləyaqətimizi daim alçaltmaq istəyənlərin arzularını əbədi olaraq gözlərində qoydu”. Bu il Heydər Əliyevin anadan olmasının 100 illiyi olduğunu xatırladan T.Mirkişili diqqətə çatdırıb ki, 100 il bundan öncə bu torpaqlarda faciə yaşanırdı: ”Belə bir şəraitdə Uca Tanrı Azərbaycan xalqına bu müstəqilliyi bir daha bəxş edəcək və bu dəfə onu əbədi edəcək bir övlad bəxş etdi. Bütün gözəl, bənzərsiz, müqəddəs işlər insandan hünər istəyir. Ona görə də zamanın səviyyəsində yaşayıb fərdi, xalqı və dövləti müstəqilliyə tam çatdırmaq mümkün deyil. Heydər Əliyev zamanın səviyyəsindən yüksək şəxsiyyət idi. O sanki bu günü və bundan sonrakı sabahı görüb dünəndə fəaliyyət göstərirdi. Öz müstəqilliyi ilə dostlarımızı sevindirən, rəqiblərimizi çəkindirən, düşmənlərimizi məyus edən, Qarabağı azad edən, bayrağımızı Şuşada dalğalandıran bugünkü Azərbaycan məhz Heydər Əliyevin əseridir. Onun layiqli davamçısı müzəffər Ali Baş Komandan, dövlət başçısı cənab İlham Əliyev isə bu əsəri hər keçən gün daha da zənginləşdirir və gücləndirir. Artıq hər kəs bilir və sonsuz olaraq inanır ki, bu gün 100 ildir, sabah 1000 il olacaq”.

**İsmayıl**

# Binəli Yıldırım Şuşaya səfər edəcək

## Prezident İlham Əliyev Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Binəli Yıldırımı qəbul edib.**

Dövlət başçısı Türkiyədə keçirilən seçkilərdə Rəcəb Tayyib Ərdoğanın, həmçinin Cümhur İttifaqının qələbəsi münasibətilə bir daha təbriklərini çatdırdı.

Görüşdə Rəcəb Tayyib Ərdoğanın Türkiyə Prezidenti seçildikdən sonra ilk səfərini Azərbaycana etməsinin və bunun dövlət səfəri statusunda həyata keçirilməsinin önəmi vurğulandı, həmişə olduğu kimi, bu səfərin də çox səmərəli keçdiyi bildirdi. Qeyd edildi ki, səfər zamanı dövlət başçıları tərəfindən Azərbaycan-Türkiyə müttəfiqliyinin müxtəlif sahələr və istiqamətlər üzrə inkişafına dair aidiyyəti nazirliklərə işlərin ardıcıl sürətdə aparılması ilə bağlı tapşırıqlar verilib. Vurğulandı ki, Türkiyənin dövlət başçısının bu səfəri ölkələrimiz arasında bütün sahələrdə qardaşlıq və dostluq əlaqələrinin möhkəmlənməsi işinə böyük töhfə verəcək.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın daha da genişlənməsinin əhəmiyyətinə toxunuldu, Binəli Yıldırımın Ağsaqqallar Şurasının sədri kimi təşkilat çərçivəsində fəaliyyəti vurğulandı.

Görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Türkiyə şirkətlərinin fəaliyyəti qeyd edildi.

Təbriklərə görə minnətdarlığını bildirən Binəli Yıldırım Prezident Rəcəb Tayyib Ərdoğanın ölkəmizə dövlət səfərinin uğurlu olduğunu qeyd etdi. Binəli Yıldırım Azərbaycanda olduğu müddətdə nümayəndə heyəti ilə birlikdə Şuşaya gedəcəyini və orada aparılan genişmiqyaslı tikinti-quruculuq işləri ilə yerində tanış olacağını bildirdi. O, Ağsaqqallar Şurasının sədri kimi Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın daha da genişlənməsinə öz töhfəsini verəcəyini vurğuladı.

Söhbət zamanı Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyi məmnunluqla qeyd edildi.

# Daha 22 ailə Laçına qayıdıb

## 72 nəfər doğma yurda qovuşmağın sevincini yaşayıb




**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq bərpa edilən və yenidən qurulan Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı davam edir. İyunun 14-də növbəti köç karvanı Laçına çatıb.**

72 nəfər olmaqla, daha 22 ailə doğma yurda qovuşmağın sevincini yaşayıb. Laçın şəhərinə, öz doğma evlərinə dönən sakinlər əlamətdar gündə sevinc göz yaşlarını saxlaya bilməyiblər. Şəhərə gələn sakinlər böyük sevinclə qarşılanıb və doğma yurdlarına qayıtmaq münasibətilə onlara göz aydınlığı verilib.

Bildirilib ki, Laçın şəhərində onların yaşaması üçün bütün zəruri şərait yaradılıb, evlər tarixi memarlıq üslubu qorunmaqla müasir standartlara uyğun bərpa edilib.

Qeyd edək ki, Laçına qayıdan ailələr, əsasən, Bakı və Sumqayıt şəhərlərində, həmçinin Abşeron rayonunda müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayan keçmiş məcburi köçkünlər arasından seçilib. Onlar Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşıblar.

*Bundan əvvəl Laçın şəhərinə 20 ailə, yəni 97 nəfər köçürülmüşdü.*

# Qanunsuz tikililərə son verilir

## Bu işi icra etmək üçün yerli icra hakimiyyətinin başçıları tərəfindən məsul şəxslər təyin olunacaq



**Prezident İlham Əliyev ”Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında” fərman imzalayıb.**

Yeni sənədlə bu il iyunun 1-dək bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış qeyri-yaşayış təyinatlı binaların istismarına sadələşdirilmiş qaydada icazə verilməsi nəzərdə tutulur. İlkin qiymətləndirmələrə görə, 40 mindən çox sənədsiz əmlak sadələşdirilmiş formada çıxarış (kupça) ala biləcəklər. Sənədə əsasən, səmərəliliyin və şəffaflığın artırılması məqsədilə 2024-cü ilin yanvar ayından etibarən fiziki və ya hüquqi şəxslər tikintiyə və ya istismara icazəni elektron portal üzərindən ala biləcəklər. Ekspertlərin fikrincə, bu, prosedurаların şəffaflaşmasına və asanlaşdırılmasına ciddi töhfə verəcək.

**Millət vəkili Vüqar Bayramov bildirib ki, qanunvericiliyə edilən digər dəyişikliyə əsasən, yerli icra hakimiyyətinin başçıları tərəfindən qanunsuz tikintilərin qarşısının alınması məqsədilə məsul şəxslər təyin olunacaq. Deputatın sözlərinə görə, məqsəd dövlət şəhərsalma nəzarəti çərçivəsində yerli icra hakimiyyəti orqanlarının məsuliyyətinin artırılması, özbaşına tikililəri aşkar etməli olan şəxslərin səlahiyyətlərinin konkretləşdirilməsidir:** ”Bundan sonra, özbaşına tikilmiş bütün tikinti obyektlərinin mühəndis-kommunikasiya sistemlərinə qoşulması qadağan edilir. Etiraf etmək lazımdır ki, tikinti sektorunun dinamik inkişafı ilə yanaşı, bir sıra hallarda tikinti fəaliyyətinin iştirakçıları tərəfindən şəhərsalma və tikinti sahəsində müəyyən olunmuş tələb və qaydalara əməl olunmaması müşahidə olunur. Yeni dəyişikliklər nəzarətin gücləndirilməsi ilə yanaşı, müəyyən dövrdə qanunsuz tikilmiş və istismara yararlı qeyri-yaşayış obyektlərinin çıxarışla təmin edilməsinə səbəb olacaq. Həmçinin gələcəkdə qanunsuz tikililərin qarşısının alınmasına xidmət edəcək”.

**İsmayıl**

# Qarabağ müharibəsində iştirak edən ermənilərə güzəşt yoxdur

## Laçın yolundakı postumuz qanunlar çərçivəsində fəaliyyət göstərir



## Əlinə silah almayan ermənilər Azərbaycan vətəndaşları kimi qəbul ediləcək

**Qarabağ müharibəsində iştirak edən şəxslərə ”Laçın” sərhəd-buraxılış məntəqəsindən keçməyə icazə verilmir. Bu iddianı Ermənistanın ”Hraparak” nəşri tirajlayıb.**

Qeyd edilib ki, bu həm Ermənistandan Xankəndiyə, həm də Xankəndidən Ermənistana getmək istəyənlərə aiddir. Qarabağdan getmək istəyənlərin buraxılmamasına səbəb isə budur ki, Azərbaycan hərbçiləri müvafiq qanunvericilik dəyişiklikləri hazırlanmayana, məhkəmə prosesləri və ya cinayət işləri başa çatana qədər həmin şəxslərin Qarabağı tərk etmək hüququna malik olmadığını bəyan edib. Onlar ya mühakimə ediləcək, ya da ümumilikdə amnistiya alacaqlar - yalnız bundan sonra onların sərbəst hərəkətinə imkan veriləcək. Bildirilib ki, Azərbaycanda 500 nəfərin adı olan siyahısı var: ”O siyahıya Vitali Balasanyan, bir çox erməni general və komandirlərinin də adı daxil edilib”. Məlumat üçün deyək ki, rəsmi Bakı qanunsuz silahlı birləşmələrin təslim olacağı və inteqrasiya prosesinin başlayacağı təqdirdə amnistiya müzakirəsinin mümkünlüyünü bildirib. Azərbaycan Prezidenti İlham Əliyevin bu açıqlamasını ABŞ Dövlət Departamenti alqışlayıb. Bu arada Xankəndidəki separatçı rejimin ”başçısı” Araik Arutyunyan da təslim olmaqdan başqa yolun qalmadığını düşünür. Araik bütün görüşlərdə vəziyyətin çətin olduğunu deyir, təslim olmaq haqda danışır və gələcəyin qeyri-müəyyənliyindən bəhs edir. Artıq çoxları üçün Qarabağda qalmaq mənasızdır.

**Azad Vətən Partiyasının sədri Akif Nağı ”Şərq”ə açıqlamasında bildirib ki, Qarabağdakı ermənilər arasında əlinə silah almayanlar, bizə qarşı vuruşmayanlar, separatçılığa bulaşmayanlar Azərbaycan vətəndaşları kimi qəbul ediləcək. Partiya rəhbərinin sözlərinə görə, bu, o anlama gəlmir ki, rəsmi Bakı Qarabağdakı cinayətkar ünsürləri, separatçıları da bağışlayacaq**: ”Biz onları bağışlamayacağıq. Dünyanın hər yerində hərbi cinayətkarlar ən ağır şəkildə cəzalandırılır və bağışlanmır. Hərbi canilər üçün vaxt və yaş söhbəti keçərli deyil. Qarabağdakı ermənilər də bilsinlər ki, Azərbaycan əsgərinə qarşı döyüşənlər, dinc sakinlərə qarşı cinayətlərdə iştirak edənlər qanun qarşısında mütləq cavab verəcək. Heç birinin bundan qurtuluşu yoxdur. Laçın yolundakı postumuz da qanunlar çərçivəsində fəaliyyət göstərir. Təbii ki, Azərbaycan torpağına, Qarabağa ermənilərin hansı niyyətlə gəlməsi araşdırılacaq. Eyni zamanda Qarabağdan Ermənistana getmək istəyənlərin kimliyi müəyyənləşdiriləcək. Əgər qaçmaq istəyənlər hərbi cinayətkarlardırsa, qətiyyən onların aradan çıxmasına imkan verməməliyik. Bu məsələdə güzəşt olmaz və heç kimin bizə təzyiq göstərməyə haqqı yoxdur”.

**İsmayıl Qocayev**



**“Azərbaycan və Ermənistan rəsmiləri arasında növbəti görüş Brüsseldə olacaq”.**

**Bunu Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Josep Borel Avropa Parlamentində keçirilən dinləmə zamanı deyib.**

Onun sözlərinə görə, Aİ Ermənistanla Azərbaycan arasında sülh quruculuğu prosesinə dəstək verməyə çalışır: “Yeganə həll yolu diplomatiyadadır. Hər iki tərəf danışıqları davam etdirmək istədiyini bildirib”.

# "Prezidentlərin Brüssel görüşü baş tutacaq"

## Tofiq Zülfüqarov: “Bu təmasların əsas məqsədi Zəngəzur dəhlizinin açılmasıdır”

J.Borel bildirib ki, Aİ Cənubi Qafqazda sülhün bərqərar olmasında maraqlıdır: “Biz bu məqsədlə həm humanitar təşəbbüslər həyata keçirir, həm də sülhə yönəlmiş danışıqlara birbaşa töhfə veririk. Biz həmçinin müharibə zamanı itkin düşmüş insanların axtarışı və tərəflər arasında yeni toqquşmaların qarşısını almaq üçün işlərlə məşğuluq”.

**Məsələyə münasibət bildirən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov ”Şərq”ə söyləyib ki, Ermənistan tərəfindən Vaşinqton görüşünün ləğv edilməsi ilə bağlı qəsdən yanlış informasiyalar yayılır:** ”Onlar iddia edirlər ki, guya, Azərbaycan Vaşinqton görüşündən yayınır. Ancaq bu, doğru deyil. Bakı texniki problemlərə görə görüşün vaxtını dəyişdirib. Bildiyiniz kimi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana geniş nümayəndə heyəti ilə səfər edib. Həmin nümayəndə heyətinin tərkibində isə Türkiyə xarici işlər naziri də yer alıb və onun həmkarı burada olmalı idi. Ona görə də Azərbaycan tərəfi xahiş edib ki, görüş başqa tarixə keçirilsin”.

**T. Zülfüqarovun sözlərinə görə, görüşün vaxtı dəqiqləşdirilir və baş tutacaq:** ”O ki qaldı Brüssel görüşünə, biz anlamalıyıq, bu təmasların əsas məqsədi Zəngəzur dəhlizinin açılmasıdır. Digər tərəfdən, Ermənistan böhranda olduğunu və dəhlizi açmağa pulu olmadığını bəhanə edir. Ona görə də gözlənilir ki, Avropa İttifaqı bunu maliyyələşdirəcək. Ancaq ortada bir problem var. Problem odur ki, Ermənistandan keçən dəmir yolları Rusiyaya aiddir. Yəni Brüsseldə baş tutacaq görüş, fərqli məsələlərin müzakirəsinə hesablanıb”.

**Nihat Müzəffər**

# Şahbaz Şərifin Bakı səfərinin siyasi əhəmiyyəti böyükdür

## Gələcəkdə Azərbaycan-Pakistan-Türkiyə birliyi inkişaf edən siyasi xətt üzrə hərəkət edəcək



**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif iyunun 14-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşıladılar.

**Səfərin gizlinlərini ”Şərq”ə açan siyasi şərhçi Asif Nərimanlı vurğulayıb ki, bu, Şahbaz Şərifin baş nazir seçildikdən sonra ilk səfəridir:** ”Pakistan Baş nazirinin səfərini həm tanışlıq, həm də münasibətlərin qurulması kontekstində dəyərləndirmək olar. Əsas məsələ bu səfərlərin perspektiv baxımından hansı önəmi kəsb etməsidir. Azərbaycan-Türkiyə-Pakistan xətti İmran Xanın dövründə xeyli inkişaf etmişdi. Hətta əməkdaşlıqda üç qardaş ölkə səviyyəsinə qalxmışdıq. Daha sonra Pakistanda baş verən daxili problemlər bu məsələni arxa plana atsa da, artıq hər şey geridə qalıb. Hesab edirəm ki, gələcəkdə də Azərbaycan-Pakistan-Türkiyə birliyi inkişaf edən siyasi xətt üzrə hərəkət edəcək. Ümumiyyətlə, Ərdoğanın Bakıda verdiyi mesajlar da yeni müstəvidə münasibətlərin qurulacağını göstərir”.

Analitik əlavə edib ki, üç qardaş ölkənin, Avrasiyanın gələcəyi baxımından mühüm əhəmiyyəti var: ”Bu həm siyasi, həm də iqtisadi kontekstdən çox vacibdir. Çünki Avrasiyada gələcəklə bağlı əsas nəqliyyat xətləri, Pakistan-Azərbaycan-Türkiyə üzərindən dəyərləndirilir. Həmçinin qardaş üç ölkə həmin nəqliyyat xətlərinin üzərində yeni güc olaraq ortaya çıxır. Azərbaycan Türkiyə və Pakistan arasında körpü rolu oynayır. Bu baxımdan Ərdoğanın səfərindən sonra Şərifin də Azərbaycana gəlməsi ənənəvi hesab edilir. Digər tərəfdən, səfər İmran Xanın dövründə əldə olunan razılıqların yenidən aktivləşməsinə də gətirib çıxaracaq”.

**Nihat Müzəffər**



# Sülhlə bağlı şərtləri qalib Azərbaycan diktə edir

## Ermənistan indiki halda öz hədəflərinə çata bilməyəcəyini yaxşı anlayır

**Ermənistanın hərbi təxribatlara görə məsuliyyəti riyakarcasına Azərbaycanın üzərinə atması və Qarabağ bölgəsinə beynəlxalq missiya göndərilməsi təklifi bu ölkənin beynəlxalq öhdəliklərinə önəm vermədiyini bir daha nümayiş etdirir.**

Ermənistanın həm işğal dövründə, həm də sülh danışıqları prosesinə maneçilik törətmək məqsədilə Azərbaycana qarşı hərbi-siyasi təxribatlar törətməsi hər kəsə məlumdur. Məhz bu təxribatçı addımlar nəticəsində 30 ilə yaxın müddətdə Azərbaycanın beynəlxalq tanınmış ərazilərinin işğalına son qoyulması istiqamətində diplomatik səylər uğursuzluğa düçar oldu. Hazırda Ermənistan tərəfinin postmünaqişə dövründə ərazilərimizdən erməni silahlı qüvvələrini tam olaraq çıxarmayaraq öhdəliyini icra etməməsi Azərbaycanın təhlükəsizliyi üçün əsas təhdid mənbəyidir. Azərbaycan ərazisində mövcud olan qüvvələrin Ermənistana məxsusluğunun danılması Ermənistanın faktları necə saxtalaşdırdığının göstəricisidir. Sərhədyanı bölgədə törədilən təxribatlarla yanaşı, ərazimizdə mövcud olan qanunsuz birləşmələr Azərbaycanın yenidənqurma işlərinə maneədir. O baxımdan bütün erməni silahlı birləşmələr Azərbaycan ərazisindən dərhal çıxarılmalıdır.

**Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə ”Şərq”ə açıqlamasında bildirib ki, Ermənistanın bölgədə sabitliyin əldə olunmasında heç bir marağı, istəyi yoxdur. Partiya rəhbərinin sözlərinə görə, bunun əsas səbəbi Ermənistanın kənardan idarə olunması, müstəqil dövlət ola bilməməsidir:** ”Ermənistan Rusiya ilə yanaşı, Qərbin də təlimatlarını icra edir. Erməni tərəfini təxribata sövq etməklə öz məqsədlərini reallaşdırmağa səy göstərirlər. Rəsmi İrəvanın açıqlamalarından da görünür ki, Ermənistanın da niyyəti Azərbaycanın Qarabağ bölgəsinə ”beynəlxalq missiya” adı ilə xarici gücləri yerləşdirməkdir. Şübhəsiz, bunda da məqsəd prosesi mümkün qədər uzatmaq, ermənilər üçün münbit şəraitin yetişməsinə zəmin hazırlamaqdır. Çünki sülhlə bağlı şərtləri qalib Azərbaycan diktə edir. Ermənistan indiki halda öz hədəflərinə çata bilməyəcəyini yaxşı anlayır. Müəyyən qədər Qərbin, eləcə də ara-sıra Rusiyanın istəklərini dilə gətirməklə əslində öz niyyətlərini pərdə arxasına keçirməyə çalışırlar. Bölgədə, eləcə də Qarabağda hansısa problemin olmaması, gərginliyin tamamilə aradan qalxması üçün Ermənistan üçtərəfli bəyanatın bəndlərinə qeyd-şərtsiz əməl etməlidir. Qanunsuz silahsız birləşmələr torpaqlarımızdan dərhal çıxmalıdır. Sərhədlərin demarkasiya və delimitasiyası prosesi sürətlənməli, kommunikasiya xətləri reallaşmalıdır”.

> “Müəyyən qədər Qərbin, eləcə də ara-sıra Rusiyanın istəklərini dilə gətirməklə, əslində, öz niyyətlərini pərdə arxasına keçirməyə çalışırlar”

**A.Əlizadə diqqətə çatdırıb ki, üzərinə vasitəçilik missiyasını götürən Rusiya, həmçinin Fransa kimi Qərb ölkələri də Cənubi Qafqazda sülh və sabitlikdə maraqlı deyil:** ”Əksinə, gərginliyin qalmasını istəyirlər. Gərginliyin davam etməsi sayəsində regiondakı siyasi-iqtisadi maraqlarını qoruya biləcəklərini düşünürlər. Bunun üçün də hər zaman olduğu kimi yenə də Ermənistandan alət kimi istifadə edirlər. Qarabağa ”beynəlxalq missiya” göndərilməsi təklifi də bu məqsədlə gündəmə gətirilir. Şübhəsiz, rəsmi Bakının icazəsi, razılığı olmadan Qarabağa heç bir xarici ölkənin nümayəndələri, ordusu yerləşə bilməz. Sadəcə rus sülhməramlılarına müvəqqəti olaraq icazə verilib. Onlar da vaxt başa çatdıqda torpaqlarımızı tərk edəcəklər”.

**İsmayıl Qocayev**

# Bakının qətiyyəti və iradəsi ortadadır

## Qazaxın yeddi kəndinin Azərbaycana qaytarılması delimitasiya və demarkasiya prosesində öz həllini tapacaq



**Bu gün Qazax rayonunun Aşağı Əskipara kəndinin işğalından 31 il keçir.**

**Qazax rayonunun Aşağı Əskipara kəndi 14 iyun 1992-ci ildən Ermənistan Silahlı Qüvvələrinin işğalı altındadır. Aşağı Əskipara yaşayış məntəqəsi Coğaz çayının sahilində, Qazançı dağın ətəyindədir.**

Kəndin tarixinin Albaniya dövlətinin yaranma tarixi ilə üst-üstə düşdüyü təxmin edilir. Yəni eramızdan əvvəl 3-cü minilliyi əhatə edir. Bunu kənddə yerləşən alban kilsəsi də sübut edir.

Kənddə XVI əsrə aid dəyirman və VI-VII əsrə aid alban kilsəsi vardı.

Aşağı Əskipara kəndinin əhalisi 1317 nəfərdir. Əhali kənd işğal olunmamışdan əvvəl, əsasən, maldarlıq və əkinçiliklə məşğul olurdular. İşğaldan sonra isə Qazax rayonunun müxtəlif hissələrində məskunlaşıblar.

Qeyd edək ki, Qazax rayonunun düşmənlə sərhəddə yerləşən Bağanıs Ayrım, Xeyrımlı, Barxudarlı, Sofulu, Qızılhacılı, Yuxarı Əskipara və Aşağı Əskipara kimi 7 kəndi hələ də düşmən tapdağı altındadır.

**Politoloq Azər Rəşidoğlu isə ”Şərq”ə açıqlamasında deyib ki, media bu məsələni daima gündəmdə saxlamalıdır:** ”10 noyabr anlaşmasından sonra Qazaxın yeddi kəndinin azad ediləcəyi fikri hakim idi. Çox təəssüflər olsun ki, bu məsələ 10 Noyabr bəyannaməsində göstərilmədi. Bəyanatda olmasa da, bu məsələ də şifahi razılaşmada müzakirə edilib. Biz bu məsələdə qətiyyət göstərməsək, İrəvan 7 kənd məsələsini Azərbaycanın xeyrinə həll etməyəcək. Bu mövzu daim diqqətdə saxlanılmalıdır. Burada Naxçıvanın Kərki kəndinin azad edilməsini də unutmalı deyilik. Qazaxın 7 kəndində mülki əhali qalmayıb və Bakı istənilən yolla həmin ərazini azad edə bilər. Bu prosesin nə qədər çəkəcəyini söyləmək çətindir. Bəzi texniki məsələlər var ki, həll olunması lazımdır. Yəqin ki, bir müddət proses davam edəcək. Lakin Ermənistanın da başqa çıxış yolu yoxdur. Bu proses həm də regionda yeni nəqliyyat-kommunikasiya marşrutlarının yaradılmasının tərkib hissəsidir, buna görə də Qazax-İcevan dəmir yolunun açılması da sonrakı gedişatlarda müzakirə oluna bilər”.

**Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov da “Şərq”ə deyib ki, Qazaxın yeddi kəndinin Azərbaycana qaytarılması delimitasiya və demarkasiya prosesində öz həllini tapacaq:** ”Buna heç bir şübhə ola bilməz. Bu anklavlar Ermənistan tərəfindən qanunsuz şəkildə işğal edilib. Nikol Paşinyan da öz açıqlamalarında bu kəndlərin Azərbaycana qaytarılacağını etiraf edib. Delimitasiya komissiyaları ilə bağlı İşçi qrupunun növbəti iclaslarında Qazaxın 7 kəndi və Naxçıvanın Kərki kəndinin taleyinə birmənalı aydınlıq gətiriləcək. Azərbaycan bu məsələnin həllində öz qətiyyətini və iradəsini nümayiş etdirib”.

**Şəymən**



# Millətimizin qurtuluşu...

## 15 iyun tarixindən ibrət alınası çox məsələlər var

**"1997-ci ildə Milli Qurtuluş Günü bayramı elan edilən 15 iyunun mahiyyətini, onun nəticələrini dərk etmək və müvafiq nəticələr çıxararaq ibrət dərsləri almaq müstəqil dövlətimizin, millətimizin keçdiyi yolu, mövcud vəziyyətini, gələcək inkişaf perspektivlərini müəyyənləşdirmək baxımından vacibdir".**

*Bunu "Sherg.az"a açıqlamasında professor, millət vəkili Musa Qasımlı 15 iyun Qurtuluş Gününün Azərbaycanın siyasi tarixindəki rolundan danışarkən deyib.*

O bildirib ki, həmin dövrdə Azərbaycan xalqı düşmüş olduğu vəziyyətdən çıxmaqdan ötrü nicat yolu arayıb:

"Adamlar sual edirdilər: Azərbaycan xalqının və dövlətinin taleyi necə olacaq? Ölkəni ağır şəraitdən kim və necə çıxara bilər? Bu yükü, məsuliyyəti öz üzərinə götürə bilən tarixi şəxsiyyət, lider varmı? Çoxlu çətin suallar qarşısında dayanan Azərbaycan xalqının nəzərləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevə yönəldi. Heydər Əliyevə olan inamın bir sıra əsaslı səbəbləri var idi. Çünki Heydər Əliyev sovet sisteminin, kommunist ideologiyasının mövcud olduğu bir şəraitdə - 70-ci illərdə respublikanın rəhbəri kimi güclü təşkilatçılıq və idarəçilik bacarığı ilə xalqının başını uca etmiş, onu qabaqcıllar cərgəsinə çıxarmışdı. Xalqın dərin inamına görə yalnız Heydər Əliyev Azərbaycan dövlətini məhv olmaqdan, ölkəni xaricdən dəstəklənən separatçılıqla parçalanmaqdan, xalqı vətəndaş müharibəsi təhlükəsindən xilas edə, mənəvi-psixoloji böhrandan çıxara, Ermənistanın davam edən hərbi təcavüzünü dayandıra, ölkəni fəlakətə salmış uğursuz xarici siyasət fəaliyyətini yeni əsaslar üzərində qura bilərdi. Təkidli tələblər qarşısında çarəsiz qalaraq geri çəkilən Azərbaycan rəhbərliyi Heydər Əliyevi Bakıya dəvət etməyə məcbur oldu".

Deputat əlavə edib ki, Bakıya gələrək parlamentdə çıxış edən Heydər Əliyev qiyamın baş verdiyi Gəncəyə gedib, şəhər əhalisi ilə görüşərək şəraitlə tanış olub və paytaxta qayıtdıqdan sonra iyunun 15-də Azərbaycan parlamentinin sədri seçilib:

"Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə müstəqil Azərbaycan dövlətinin və xalqının tarixində yeni bir mərhələ başladı. Bu mərhələnin səciyyəvi cəhəti müasir müstəqil dövlətin xilası və möhkəm əsaslarda qurulmasıdır. Hakimiyyətə gəlişi ilə ölkəni parçalanmaqdan, xalqı vətəndaş müharibəsindən xilas edən Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusu və memarı oldu. Bununla da Azərbaycanda təməlləri möhkəm olan güclü dövlətçilik ənənəsinin və dərin dövlətin əsası qoyuldu. Həmçinin uğurlu Horadiz əməliyyatı ilə düşmənə zərbə vuruldu, bir sıra ərazilər işğaldan azad edildi, işğalçı ölkə və havadarları Azərbaycanın qəti mövqeyini gördülər. Azərbaycan dövləti 1994-cü ilin may ayının əvvəllərində NATO-nun Sülh naminə tərəfdaşlıq proqramına qatıldı. Həmin ayda Ermənistan ilə Azərbaycan arasında atəşkəs elan edildi. Heydər Əliyev atəşkəsə torpaqları azad etmək üçün güclənməkdən, dövləti və ordunu qurmaqdan, xarici sərmayəni cəlb etməkdən ötrü vaxt qazanmaqda vasitə kimi baxırdı. Elə ona görə də atəşkəsdən sonra Azərbaycan xalqının və dövlətinin tərəqqisi və gələcəyi naminə möhtəşəm bir addım atıldı. 1994-cü il sentyabrın 20-də dünyanın bir sıra böyük ölkələrinin transmilli şirkətlərilə "Əsrin müqaviləsi" imzalandı. Heydər Əliyev birbiri ilə didişən, rəqabət aparan ölkələri, transmilli şirkətləri ortaq məxrəcə gətirərək Azərbaycanda əməkdaşlığa cəlb etdi. Bəzi ölkələrdən ərazisinin böyük, əhalisinin sayının çox olmasına baxmayaraq, Azərbaycan onları bir masa arxasında oturda bildi. Ümumiyyətlə 30 ilin zirvəsindən baxıldıqda 15 iyun tarixindən ibrət alınası bir çox məsələlər var".

*Qeyd edək ki, 15 iyun Azərbaycan Respublikasının Milli Qurtuluş Günüdür.*

**Nihat Müzəffər**

# Dərs ilinin sentyabrın 1-də başlaması ən doğru qərar olar

## Bunu əhalinin əksəriyyəti dəstəkləyir, təhsil ekspertləri də eyni qənaətdədir

**Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qeyd edildiyi kimi, təhsilin keyfiyyətinin dayanıqlı yüksəlişində maraqlı tərəflərin cəlb olunmasının təmin edən səmərəli idarəetmə mühüm rol oynayır. İnkişaf etmiş ölkələrin təcrübəsindən də aydın olur ki, təhsildə idarəetmənin ictimailəşməsi prosesi sürətlənməkdədir. Təhsil ümumdövlət və ümumxalq işi olduğundan burada maraqlı və iştirakçı tərəflərin rəyinin nəzərə alınması zəruridir.**



*Sosial Tədqiqatlar Mərkəzindən "Şərq"ə verilən xəbərə görə, Azərbaycan təhsil sistemində müzakirə edilən məsələlərdən biri də tədris ilinin başlanma tarixi ilə bağlıdır.*

Əvvəllər ölkədəki iqlim şəraitinin dərslərin sentyabrın 15-də başlamasına daha münasib olması mövqeyindən çıxış edən Təhsil Nazirliyi son vaxtlar fərqli münasibət ortaya qoyur. Belə ki, Elm və təhsil naziri Emin Əmrullayev may ayında keçirdiyi brifinqdə məktəblərdə dərslərin sentyabrın 1-dən başlamasının daha məqsədəuyğun olduğunu bildirib. Həmçinin ümumilikdə tədris prosesinin daha uzunmüddətli olmasını nəticəlilik baxımından daha düzgün hesab edib. Dünyada tədris ilinin uzun olması bəzi ölkələrdə həm də onların inkişaf göstəricisi sayılır. Bu, kurikulumun məzmun keyfiyyətinin artırılması, tədris yükünün azaldılması ilə bağlı görülən tədbirlərdən biri hesab edilir.

Ölkədə tədris ilinin başlanma tarixi ilə bağlı məsələ millət vəkilləri, təhsil ekspertləri tərəfindən də dəfələrlə müzakirəyə çıxarılıb. Dünyanın müxtəlif ölkələrində dərs ilinin başlanılması fərqli tarixlərdə olsa da, bir çoxunda sentyabrın 1-də başlayır. Məsələn, Rusiya, Kanada, Belçika, Çexiya, Macarıstan, İsrail, Estoniya və başqa ölkələrdə dərs ili sentyabrın 1-i başlayır və müvafiq olaraq iyunun əvvəlinə, ortalarına və axırlarına kimi davam edir.

Onu da qeyd edək ki, tədris ilinin başlanma tarixinin dəyişdirilməsi Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi imtahanların qrafikinin dəyişdirilməsi zərurətini də ortaya çıxarır. Bunun üçün ilk növbədə ali və orta ixtisas təhsil müəssisələrinə qəbul vaxtı bir qədər önə çəkilməlidir. Belə ki, sentyabrın 1-də tədris ili başlayarsa, bu vaxta qədər ali və orta ixtisas təhsil müəssisələrinə birinci və ikinci qəbul prosesləri yekunlaşmalıdır. Bu proses hazırkı sistemdə də çətinlik törədir. Kurikulum sistemində qəbul imtahanlarında yeni tipli sualların yoxlanılması prosesi bəzən bir aydan uzun çəkir. Onun ardınca ixtisaslaşma prosesi başlayır.

Beləliklə, Sosial Tədqiqatlar Mərkəzi ictimai marağı və bu mövzuda aparılan müzakirələri nəzərə alaraq rəy sorğusu keçirib. Respondentlərə "Dərs ilinin sentyabrın 15-də, yoxsa sentyabrın 1-də başlamasını istəyərdiniz?" sualı ünvanlanıb.

Sorğunun nəticələrinə əsasən, respondentlərin 68,1faizi dərslərin sentyabrın 1-də, 24,7 faizi isə sentyabrın 15-də başlamasının daha məqsədəuyğun olduğunu qeyd edib. Rəyi soruşulanların 7,2 faizi bu mövzu ilə bağlı fikir bildirməkdə çətinlik çəkib.

Nəticələri gender aspektindən nəzərdən keçirdikdə dərslərin sentyabrın 1-də başlamasını qadın respondentlər (74,9 faiz) kişilərlə müqayisədə (61.3 faiz) daha çox dəstəkləyib.

Respondentlərin yaş səviyyəsinə görə məsələyə münasibətində maraqlı tendensiya müşahidə edilib. Belə ki, yaş artdıqca, tədris ilinin sentyabrın 1-də başlamasını dəstəkləyənlərin sayı artıb.

**Millət vəkili Ceyhun Məmmədov da hesab edir ki, dərslərin sentyabrın 1-i başlayıb, mayın sonu bitməsi daha yaxşı olar:** "Sovet dövründə və ondan sonrakı dövrlərdə belə idi. İyunun əvvəlində insanların əksəriyyətində oxumaq, dərsə meyl abhavası olmur. Ona görə düşünürəm ki, əgər əvvəllər biz bütün proqramı sentyabrın 1-dən mayın sonuna kimi yekunlaşdıra bilirdiksə, bunu indi də edə bilərik. Həm də ki dərslərin o vaxt sentyabrın 1-dən başlamasının səbəbi hava şəraiti ilə əlaqəli olub. Nəzərə almaq lazımdır ki, iyunun əvvəlindən havalar istiləşməyə başlayır. Bizim bütün bölgələrimizdəki məktəblərdə şagirdlərin normal təhsil alması üçün müəyyən sistemlər mövcud deyil. O baxımdan bizim bu ənənəni qorumağımız lazımdır".

**Təhsil eksperti Elşən Qafarov isə tədris ilinin uzadılmasını, yəni sentyabr ayının 1-i başlayıb, iyunun 14-də bitməsinin daha doğru olacağını hesab edir:** "Tədris ili müddəti ilə əlaqədar hər il müəyyən müzakirələr aparılır. Bu hal Azərbaycanda tədris ilinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması ilə bağlıdır. Beynəlxalq təcrübədə təhsili inkişaf etmiş ölkələrin əksəriyyətində tədris ili 34-36 həftədir. Bizdə isə tədris ilinin müddəti Nazirlər Kabinetinin 24 fevral 2020-ci il qərarı ilə tənzimlənir. Azərbaycanda tədris ilinin müddəti 34 həftə olaraq təyin edilib. Lakin elm və təhsil nazirinin bir neçə gün öncə brifinqdə tədris ili müddəti ilə bağlı səsləndirdiyi fikir cəmiyyətdə və mətbuatda düzgün qarşılanmayıb. Nazir deyib ki, bu məsələnin dəyişdirilməsi müzakirə olunmur. Amma təhsildə işləyən şəxs kimi mən də tədris ilinin sentyabr ayının 1-dən başlamasının tərəfdarıyam. Lakin şəxsi fikrimə qalarsa, tədris ilinin müddəti 36 həftəyə çatdırılsa, daha məqsədəuyğun olar. Tədris ilinin sentyabrın 1-dən iyunun 14-nə qədər olması daha optimal variantdır. Bunun üçün tədbirlər görülməlidir. Hazırda tədris ilinin müddəti 34 həftədir və dərslərin başlaması 1 sentyabra təyin edilərsə, tədris ilinin müddəti 36 həftəyə çataraq beynəlxalq tələblərə uyğunlaşdırılmış olar. Hesab edirəm ki, belə addımın atılması daha yaxşıdır".

**Şəymən**

# Türkiyənin yumruğu artıq masadadır

## İran Zəngəzur dəhlizinin açılmasını istəməsə də proses mütləq reallaşacaq

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan növbəti dəfə Zəngəzur dəhlizindən danışıb. Ərdoğan bildirib ki, Zəngəzur dəhlizi layihəsinin reallaşmaması Ermənistanla deyil, İranla bağlıdır. Onun sözlərinə görə, İranın mövqeyi həm Türkiyəni, həm də Azərbaycanı narahat edir:**




"Tehran hesab edir ki, prosesin rellaşması, sadəcə, İranın kənarda qalması yox, həmçinin Azərbaycanın iqtisadi cəhətdən güclənməsi, söz sahibinə çevrilməsidir"

"Bu problemin ən yaxın zamanda həll olunacağını arzulayıram". Ərdoğan Azərbaycanda olarkən də bildirmişdi ki, Zəngəzur dəhlizi məsələsinin həlli bizə iki mühüm imkanı qazandıracaq: "İstər avtomobil yolu, istərsə dəmir yolu ilə bağlı atılacaq addımlarla Türkiyənin Naxçıvanla əlaqəsi daha güclü olacaq. Bu əlaqələr də Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin güclənməsinə imkan verəcək".

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə bildirib ki, İran heç bir formada Zəngəzur dəhlizinin açılmasını istəmir. Partiya təmsilçisi vurğulayıb ki, Tehran hökumətinin qənaətincə, Zəngəzur dəhlizinin istifadəyə verilməsi regionda iqtisadi-ticari əlaqələrin bərpası və kommunikasiya xətlərinin açılması deməkdir ki, bu da İranın künc sıxılmasına, kənarda qalmasına səbəb olacaq:** "Avropadan Türkiyəyə, qardaş ölkədən Naxçıvan vasitəsilə Azərbaycana və buradan Orta Asiyaya uzanacaq dəhlizdə İran heç bir rol oynamır. O baxımdan Zəngəzur dəhlizinin açılmamasında İran çox maraqlıdır. Ciddi-cəhdlə çalışır ki, sözügedən dəhliz müzakirə müstəvisində qalsın və reallaşmasın. Zəngəzur dəhlizinin açılması sadəcə İranın kənarda qalması yox, həmçinin Azərbaycanın iqtisadi cəhətdən güclənməsidir, söz sahibinə çevrilməsidir. Bu faktor Güney Azərbaycandakı soydaşlarımıza da təsir göstərəcək və proses onlara sirayət edəcək. Bunlar İranı narahat edən önəmli məqamlardır. Son vaxtlar Azərbaycanla İran arasında münasibətlərin kəskinləşməsinin, səfirliyimizə hücumun, rəsmilərin ölkəmizi ittiham etməsinin əsas səbəblərindən biri budur. İran hər zaman Azərbaycan əleyhinə iş aparıb, Ermənistana hərtərəfli dəstək verib, nəfəslik rolunu oynayıb. Bu, İranın siyasi rejiminin Azərbaycana düşmən mövqedə olduğunun əyani sübutudur. O baxımdan Türkiyənin Zəngəzur dəhlizi məsələsində qətiyyətli mövqe sərgiləməsi olduqca mühümdür. Yəqin ki, Tehran buna reaksiya verəcək".

**İsmayıl Qocayev**

# Putin Azərbaycana yeni səfir göndərdi

## Mixail Yevdokimov özündən əvvəlki diplomatlara bənzəməyəcək, diqqətimiz onun üzərində olmalıdır

**"Bir-biri ilə mübarizə aparan iki böyük güc – ABŞ və Rusiya eyni zaman kəsiyində Azərbaycana səfir təyin ediblər. Fərq ondadır ki, Kreml bir fərmanla səfirini çalışacağı ölkəyə göndərməyə hazırlaşır, lakin Vaşinqtonda bu prosedur mürəkkəbdir".**




Bu barədə politoloq Elxan Şahinoğlu deyib. Analitik qeyd edib ki, Konqres prezidentin müəyyənləşdirdiyi səfiri sorğu-suala tutur, bəzən isə namizədi təsdiq etmir: "Azərbaycan nümunəsində belə bir hal olub. Metyu Brayza Konqresin təsdiqini almadığından Azərbaycandakı səfir vəzifəsini yarımçıq buraxmalı olub. ABŞ Prezidenti Co Baydenin Azərbaycana səfir təyin etmək istədiyi diplomat Mark Libbidir. ABŞ-nin keçmiş prezidenti Donald Tramp tərəfindən 2019-cu ildə təyin olunan Örl Litzbergerin səlahiyyət müddəti ötən ilin iyul ayında başa çatsa da, ABŞ hələ də Azərbaycana yeni səfir təyin etməyib. Mark Libbinin namizədliyi 2022-ci ilin may ayının 25-də irəli sürülsə də, Konqresin Xarici Əlaqələr Komitəsində onun namizədliyi ilə bağlı dinləmələr iyunun 13-də keçirilib. Mark Libbi hazırda Vaşinqtondakı Milli Müharibə Kollecində çalışır. O, 2021-ci ilin iyun ayınadək ABŞ-nin Brüsseldə Avropa İttifaqı yanındakı missiyasında müvəqqəti işlər vəkili, missiya rəhbərinin müavini işləyib. O, həmçinin müxtəlif vaxtlarda Varşava, Nassau, Nikosiya və Bağdadda siyasi müşavir olub. Bundan əlavə, Vaşinqtonda Dövlət Departamentinin Əməliyyat Mərkəzində nəzarətçi və daha sonra Böhranların İdarə Edilməsi üzrə Direktor müavini vəzifəsində fəaliyyətini davam etdirib. Mark Libbi daha sonra Mərkəzi Avropa İşləri Ofisində direktor müavini, Cənubi Avropa İşləri İdarəsinin direktoru olub. Mark Libbi Senatın Xarici Əlaqələr Komitəsində çıxışında Azərbaycanın Ukraynaya humanitar yardımlarını yüksək qiymətləndirib".

**Ekspert diqqətə çatdırıb ki, Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana təyin etdiyi yeni səfir - Mixail Yevdokimov da təcrübəli diplomatdır:** "1959-cu ildə anadan olan Yevdokimov 1981-ci ildən keçmiş SSRİ-nin Xarici İşlər Nazirliyində çalışıb. SSRİ dağıldıqdan sonra Rusiya Xarici İşlər Nazirliyinin müxtəlif departamentlərində rəhbər vəzifələrdə çalışıb. 1997-2001-ci illər arasında ölkəsini BMT-dəki Nümayəndəliyində və digər beynəlxalq təşkilatlarda təmsil edib. Yevdokimovun XİN-dəki son vəzifəsi Müstəqil Dövlətlər Birliyində departament rəhbəri olub. Belə anlaşılır ki, Azərbaycana səfir təyin olunan rusiyalı diplomat bölgəni yaxşı tanıyır. Yevdokimovdan əvvəlki səfir Mixail Boçarnikovun Azərbaycandakı fəaliyyət dövrü bir göz qırpımında bitdi. Boçarnikov kölgədə qalmağa üstünlük verirdi, müsahibə və açıqlamaları çox deyildi. Halbuki Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin az qala hər gün açıqlama verir, Ermənistanı qarış-qarış gəzir. Doğrusu, bizə Rusiyanın Azərbaycana Kopırkin kimi fəal səfiri heç lazım da deyil. Rusiyanın Azərbaycandakı ilk səfiri Valter Şoniyanın qarışmadığı məsələ qalmamışdı. Mixail Yevdokimov aparat işçisi olaraq ölkəsinin xarici siyasət prioritetlərini yaxşı mənimsəyib. Mixail Yevdokimov patronu Sergey Lavrovun Qərbin keçmiş SSRİ məkanında Rusiyanın maraqları əleyhinə çalışması fikrini bölüşür. Məsələn, Yevdokimov da Lavrov kimi hesab edir ki, Qərb Müstəqil Dövlət Birliyi çərçivəsində inteqrasiya proseslərini əngəlləmək istəyir. Yevdokimov bu səbəbdən MDB çərçivəsində fəallaşmanın zərurəti fikrindədir. Rusiyanın Azərbaycana təyin olunan yeni səfiri Rusiyanın bölgədəki maraqlarının təmin edilməsində yaradıcı yanaşmanın tərəfdarıdır. Deyəsən, Mixail Yevdokimov özündən əvvəlki səfirə bənzəməyəcək, diqqətimiz onun üzərində olmalıdır".

**İsmayıl**

# Medianın İnkişafı Agentliyi fərdi jurnalist müsabiqəsi elan edir!

**"Media haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.4-cü maddəsinə əsasən jurnalist anlayışı ilə əhatə olunan şəxslər müsabiqədə iştirak edə bilərlər.**

Müsabiqədə iştirak etmək üçün müraciət və ona əlavə edilən sənədlər elektron formada mib.media.gov.az portalı vasitəsilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə təqdim edilir.

Müsabiqənin yekununda yazılar üçün nəzərdə tutulmuş nominasiyaların hər biri üzrə 5 jurnalist, süjetlər üçün nəzərdə tutulmuş nominasiyaların hər biri üzrə isə 2 jurnalist və 2 operator qalib elan edilir və mükafatlandırılır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycan dövləti tarixinin şərəfli bir dövrünü yaşayır

## Heydər Əliyev dühasının bəhrələri olan bu nailiyyətlər Azərbaycanı məhv olmaqdan qurtardı, müstəqilliyimizi daimi, əbədi, sarsılmaz, dönməz etdi




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

### Azərbaycançılıq ideyasının təbliği:

**Hər bir xalqın vahid məram və məqsəd ətrafında birləşərək inkişaf yolunu düzgün müəyyənləşdirməsi, ilk növbədə, milli ideologiya ilə sıx bağlıdır. Yəni milli ideologiya hər bir xalqın tarixi inkişaf yolundan xəbər verən bələdçidir. Cəmiyyətin inkişafının ümumi məqsəd və strategiyasına xidmət etməklə yanaşı, hərtərəfli tərəqqinin vacib amilidir.**

Bu baxımdan, azərbaycançılıq müstəqil Azərbaycan dövlətinin və xalqımızın milli ideologiyasıdır. Azərbaycançılığın əsasında Azərbaycanı özünə Vətən sayan bütün xalqların milli, etnik, dini və sosial hüquqlarının bərabərliyi ideyası dayanır. Azərbaycançılıq milli dövlət ideologiyası kimi Azərbaycan Respublikasının Konstitusiya əsaslarına söykənən, Azərbaycan Respublikasının müstəqilliyinə, onun hüquqi və demokratik dövlət kimi inkişafına və milli təhlükəsizliyinin qorunmasına xidmət edən dəyərlər sistemidir. Azərbaycançılığın bütün dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gəlməsi, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin misilsiz tarixi xidmətidir. Ulu Öndər Heydər Əliyev hələ sovet dövründə Azərbaycana rəhbərlik edərkən azərbaycançılıq məfkurəsinin bütün həmvətənlərimiz arasında yayılmasına, bu ideyanın geniş ictimai dəyər qazanmasına çalışırdı. Müstəqilliyin ilk illərində respublikamızda dərin böhranın yaranması Azərbaycanı müstəqil dövlət kimi parçalanmaq, məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Belə bir şəraitdə Azərbaycan xalqı nicat yolunu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdü. Ulu Öndər 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi, bununla da Azərbaycanın xilasının təməli qoyuldu və 15 iyun Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Qurtuluş məfkurəsi, ilk növbədə, ölkədə milli birliyə və həmrəyliyə söykənirdi. Bunun siyasi-ideoloji əsasını isə yalnız azərbaycançılıq ideyası təşkil edə bilərdi və Ulu Öndər böyük uzaqgörənliklə bu ideyanı Azərbaycanın milli dövlətçilik ideologiyasına çevirmək xəttini götürdü.

15 iyun 1993-cü ilin müasir Azərbaycan dövlətinin tarixində xüsusi yeri var. Hər il xalqımız 15 İyun - Milli Qurtuluş Gününü əziz bayram kimi qeyd edir. Bugünkü əmin-amanlıq, sabitlik, iqtisadi inkişaf üçün böyük fədakarlıqlar göstərən Ulu Öndər Heydər Əliyev xalqımızın təkidli tələbi ilə hakimiyyətə yenidən qayıdaraq ömrünü bütövlükdə doğma Azərbaycanımızın çiçəklənməsinə, mənsub olduğu xalqın inkişafına sərf edib. Bütün varlığı ilə sevdiyi Vətənini, xalqını, onun dövlətçiliyini tarixin çox çətin sınaq və imtahanlarından böyük məharətlə çıxarıb. Minilliklərin tarixini yekunlaşdırıb, Azərbaycan xalqının salnaməsini öz dəst-xətti ilə tamamlayaraq, dünya dövlətləri cərgəsində özünün qurub yaratdığı şah əsəri olan müstəqil Azərbaycan dövlətinə yaşamaq, əbədi var olmaq hüququ verib. Müstəqilliyimizin əbədiliyinin təmin olunmasının, milli dövlətçiliyimizin qurulmasının təməli 1993-cü ilin iyunundan başlayır. Ümummilli Liderin dövlətçilik təcrübəsi, düzgün seçim strategiyası və bunun fonunda atdığı zəruri addımlar sayəsində ölkədə hökm sürən dağıdıcı proseslər mərhələli şəkildə aradan qaldırıldı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. İyunun 24-də prezidentin səlahiyyətlərini həyata keçirməyə başlayan Ulu Öndər oktyabrın 3-də ümumxalq səsverməsi yolu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. Ulu Öndər ölkənin və xalqın ən ağır vaxtında hakimiyyətə gəlişi ilə tarixi bir missiyanı, Azərbaycanı, dövlətçiliyi, müstəqilliyi, milli ideologiyanı daxili və xarici düşmənlərin caynağından özünün fitri istedadı, dərin zəkası, qətiyyəti, uzaqgörənliyi ilə qurtardı. Konkret olaraq, kimsə Azərbaycanın dövlətçiliyinə xəyanət edəcəksə, son damla qanına qədər onunla mübarizə aparacağını qətiyyətlə bəyan etdi. O, xalqı qardaş qırğınından, vətəndaş müharibəsindən, ölkəni separatçılıqdan və real parçalanma təhlükəsindən, xalq təsərrüfatını dağılmaqdan xilas etdi, müharibədə atəşkəsə nail oldu. Azərbaycanın müstəqilliyini möhkəmləndirməklə, onun güclü dövlətçilik xəttini, siyasi-iqtisadi əsaslarını yaratdı, azərbaycançılığın ümummilli ideya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi Ulu Öndər Heydər Əliyevin tarixi xidmətidir. Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox böyük və məqsədyönlü addımlar atıldı. Ölkənin sosial-iqtisadi inkişaf xəttini müəyyən edən bir çox irimiqyaslı konsepsiya, strategiya və proqramlar qəbul edildi. Bu sənədlər ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafını təmin etmək üçün zəmin yaratdı. Ümummilli Lider Heydər Əliyevin müdrikliyi və siyasi uzaqgörənliyinin zirvəsi onun özündən sonra siyasi kursunu hamıdan yaxşı davam etdirərək, Azərbaycanın müstəqilliyini hamıdan yaxşı qoruya biləcək, dövlətimizin inkişafını hamıdan yaxşı təmin edəcək yeni dövrün liderini - İlham Əliyevi yetişdirməsi olub. Bu gün ölkəmiz öz müstəqillik tarixinin ən şərəfli dövrünü yaşayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə siyasi, iqtisadi və sosial baxımdan Azərbaycan dünyaya yeni inkişaf modelini təqdim edib. Qüdrətli və güclü dövlətə çevrilən Azərbaycan bütövlükdə Cənubi Qafqazın lideri və dünyanın ən sürətli inkişaf tempinə malik ölkəsi olub. Dünya müstəqil Azərbaycanın gücünü, qüdrətini Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 gün ərzində işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsində aydın gördü. Prezident İlham Əliyev müqəddəs bir vəzifəni - Azərbaycanın ərazi bütövlüyünü bərpa edərək adını tarixə qızıl hərflərlə yazdı. Zəfər Paradı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun, dövlətinin gücünün göstəricisi, xalqın çoxdan arzuladığı tarixi bir hadisənin təsdiqi oldu. Azərbaycanın sarsılmaz, məğlubedilməz bir ölkə olduğunu bütün dünyaya sübut etdi. Bu müqəddəs yolun, bu şərəfli missiyanın bünövrəsi 15 İyun - Milli Qurtuluş Günündən başlayıb.

**Deputat Sevinc Fətəliyeva deyib ki, Ulu Öndər Heydər Əliyev xilaskarlıq missiyasını yerinə yetirərək bütün təhlükələri dəf etdi və müstəqilliyimizin dönməzliyi təmin olundu. Bu səbəbdən də 15 iyun tarixi haqlı olaraq tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu:** "Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Həmin il "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşdirilməsi də məhz Ulu Öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Həyatın bütün sahələrində tərəqqi və dirçəliş baş verdi. Heydər Əliyev dühasının bəhrələri olan bu nailiyyətlər Azərbaycanı məhv olmaqdan qurtardı, müstəqilliyimizi daimi, əbədi, sarsılmaz, dönməz etdi". *Millət vəkili deyib ki, Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ötən illər ərzində daha da güclənib, dünyada nüfuzlu dövlətə çevrilib:* "2020-ci ildə Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli ordumuz 44 günlük Vətən müharibəsi nəticəsində işğal altında olan torpaqlarımızı azad etdi, işğalçı ordu məğlub oldu. Bu qələbə tariximizə qızıl hərflərlə yazıldı. Təbii ki, bu qələbədə xalq və cəmiyyət olaraq birliyimiz və həmrəyliyimiz də mühüm rol oynadı. Beləliklə, Ulu Öndər Heydər Əliyevin xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib dinamik islahatlar yoluna çıxardığı Azərbaycan hazırda onun layiqli davamçısı - Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Qazanılan uğurlar Azərbaycanın beynəlxalq aləmdə mövqeyini də əhəmiyyətli dərəcədə gücləndirir. Əminliklə demək olar ki, bu gün ölkəmiz dünya birliyinin tam bərabərhüquqlu üzvüdür, söz sahibi olan dövlətdir. Ümummilli Liderin qurduğu dünyəvi Azərbaycan dövləti öz tarixinin yüksəlişlə müşayiət olunan şərəfli bir dövrünü yaşayır".

**İsmayıl**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# 300 manatlıq birdəfəlik yardım ünvanlı deyil

## Milyonçuya da, ən yoxsula da eyni vəsait ödənilir

**Uşaqpulunun verilməsi məsələsi yenidən aktuallaşıb. Belə ki, "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında" qanuna təklif edilən dəyişiklikdə, uşağın anadan olmasına görə əhaliyə ödənişlər üzrə xərclərin 28 milyon manatdan 32 milyon manata qaldırılması nəzərdə tutulur.**

Böyük ehtimalla bu, doğuma görə birdəfəlik yardımın bir qədər artırılacağı ilə bağlıdır. Hazırda bu məbləğ 300 manat təşkil edir. Lakin ictimaiyyətin müzakirə etdiyi əsas məsələ aylıq uşaqpulunun bərpasıdır ki, bununla bağlı hələ ki, parlamentdə və hökumətdə konkret fikir yoxdur.

**"Altay" Sosial-iqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri, sosioloq Elçin Bayramlı "Şərq"ə açıqlamasında deyib ki, istənilən sosial yardımın artırılmasını təqdirəlayiq hesab etmək olar. Çünki bu, sosial təminat cəhətdən zəif vətəndaşların müdafiəsini gücləndirir:**

"Burada söhbət təxminən 50 manat artımdan gedə bilər. Lakin son illərdə müşahidə olunan bahalaşma və inflyasiya templəri bu artımları "yeyir", ona görə də bu məbləği artım hesab etmək mümkün deyil. Bu, uzaqbaşı indeksasiya və ya kompensasiya adlana bilər. Çünki pulun nominal dəyəri deyil, real dəyəridir. Son illərdə pulun real dəyəri təxminən 3 dəfə aşağı düşüb, lakin nominal dəyəri artıb.

Birdəfəlik uşaqpulu ilə bağlı də eyni vəziyyətdir. Hazırkı 300 manat bir neçə il əvvəlki 150 manat dəyərində olduğundan bu məbləğin xeyli artırılmasına ehtiyac var. Bunun üçün ölkəmizin kifayət qədər maliyyə-iqtisadi imkanları var. Hazırda verilən 300 manatlıq yardım bir uşağın doğuş xərcinin 1/3-ni də qarşılamır.




"Heç olmasa, ilkin mərhələdə hər uşağa görə 100 manat məbləğində aylıq uşaqpulunun verilməsi vacibdir"

Azərbaycanda uşaq doğumuna görə birdəfəlik yardım əksər ölkələrə nisbətdə xeyli aşağıdır. Bəzi ölkələrdə bu, bir neçə min manatdan başlayır, bəzilərində isə 10-20-30 min manat təşkil edir. Bizdə də bu məbləğin ən azı 2-3 min manata qaldırılması vacibdir. Əlavə olaraq, aylıq uşaqpulu da verilməsi vacibdir. Heç olmasa, ilkin mərhələdə hər uşağa görə 100 manat məbləğində. Əgər imkanlı vətəndaşların buna ehtiyacı olmadığı və ünvanlılıq prinsipi əsas götürülərsə, onda heç olmasa, aşağı gəlirli ailələrin uşaqlarına bu yardımlar ödənilməlidir. Tutaq ki, adambaşına 500 manatdan aşağı gəliri olan 3 və daha çox uşaqlı ailələrə. Bu daha çox, ünvanlılıq sayıla bilər. Hazırda verilən 300 manatlıq birdəfəlik yardım da ünvanlı deyil, milyonçuya da, ən yoxsula da eyni vəsait ödənilir".

**E.Bayramlının sözlərinə görə, sosial yardım qayğıya ehtiyacı olan vətəndaşları əhatə etməlidir. Əslində, dövlətin də məqsədi və mahiyyəti elə budur:** "Statistika göstərir ki, son illərdə uşaq doğumu kəskin azalır, 1 uşaqlı ailələrin çəkisi sürətlə artır. Bu da milli genefondumuz üçün təhlükəli vəziyyətdir. Bu hal davam etsə, demoqrafik vəziyyət ağırlaşacaq, əhalinin qocalması və azalması baş verəcək, işçi qüvvəsinin azalması ilə iqtisadi aktivlik zəifləyəcək və hər 100 işləyənə daha çox pensiya və ya müavinət alanların sayının artması nəticəsində dövlətin sosial yükü artacaq. Biruşaqlı ailə normal ailə deyil. Bir millətin davamlılığının və milli genefondunun qorunması üçün orta hesabla hər ailədə 3 uşaq olmalıdır. Hələ 3 uşaq belə, əhalinin artımını yox, mövcud sayın qorunmasını təmin edə bilər. Bu vəziyyəti də dövlət stimullaşdırmalı və imkansız ailələrə uşaq pulu formasında yardım etməlidir ki, heç olmasa, uşaqların sağlam böyüməsinə dəstək olsun.

Onsuz da indiki ailələr 3-4 uşaq dünyaya gətirməkdə maraqlı deyillər, yenə əksəriyyəti 1 və ya 2 uşaq dünyaya gətirəcəklər. Onları da normal və sağlam formada böyütmək lazımdır. Bunun üçün də sosial təminat cəhətdən zəif və yaşayış şəraiti ağır olan, əlil, işsiz və kirayələrdə yaşayan ailələrə yardımlar edilməlidir. Ölkəmizin maliyyə vəziyyəti ilə bağlı heç bir problemi yoxdur və üstəlik, hər il büdcədə lazım olandan da artıq vəsait toplanır, 5-6 milyard manatlıq profisit yaranır ki, bunun da bir hissəsi uşaqlar üçün sosial yardımlara yönəldilə bilər".

**Şəymən**




# Rusiyadan tapşırıq alıblar

## Böyük güclər iki dövlət arasında münasibətlərin olmasını istəmirlər

**Ermənistan Azərbaycanın suveren ərazilərində qeyri-qanuni hərbi mövcudluğunu davam etdirir. Azərbaycanın mərkəzi hakimiyyət orqanları ilə Qarabağ bölgəsinin erməni əsilli yerli sakinləri arasında dialoqa əngəl yaradır. Əgər Ermənistan bölgədə sülh və əmin-amanlıq tərəfdarıdırsa, bu kimi müdaxilələrə son qoymalıdır.**

Erməni politoloq Aram Sarkisyan bildirib ki, Ermənistan çox ağrılı addımla razılaşdı, çünki strateji müttəfiqləri (Rusiya nəzərdə tutulur - red.) onlar üçün ən əlverişsiz həll yolunun tərəfdarıdır: "Azərbaycana təsir etmək və hərbi balansı bərpa etmək iqtidarında olan yeni müttəfiqlər bir çox yerlərdə belə bir həll yolundan istifadə ediblər və xoşbəxtlikdən, nəticələr pis deyil:

Ermənistana daha 3-5 il zəmanətli sülh lazımdır, əminəm ki, bundan sonra Azərbaycan sərhəddəki toqquşmalardan, qeyri-sabitlikdən şikayətlənəcək".

Rusiyanın uduzacağına əminliyini ifadə edən Sarkisyan sonra "növbənin" Azərbaycana gələcəyini iddia edib.

O, regional iqtisadi-siyasi formata qarşı da çıxıb: "3+3 formatlı proqramlarla Qərbi regiondan sıxışdırmağa çalışan liderlər bağışlanmayacaq".

**Erməni siyasi şərhçinin fikirlərinə münasibət bildirən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında erməni politoloqun sözlərinin publikaya hesablandığını vurğulayıb:** "Ermənistan 3-5 ildən sonra nə edə bilər ki, Azərbaycan toqquşmalardan şikayətlənsin?! Rusiyadan tapşırıq alıblar. İki dövlət arasında münasibətin olmamasını istəyirlər. Rusiyanın gələcəkdə yarana biləcək Azərbaycan-Ermənistan qarşıdurmasından yararlanması nəzərdə tutulub. Amma bu mümkünsüzdür. İki ildən sonra 10 noyabr 2020-ci il tarixli Üçtərəfli bəyannaməyə görə, Rusiya sülhməramlı kontingentin 5 illik qalma müddəti bitir. Rusiyanın başı Ukrayna ilə müharibəyə qarışıb, çox ciddi təxribat törədə bilmirlər. Ermənistanın daxilində narahatlıq var. İrəvan əhalisi Azərbaycan Ordusunun ora daxil olmasından qorxur.

Azərbaycan kənardan gələn bütün ekoloji, siyasi, iqtisadi, hərbi təhdidlərə qarşı tədbirlər görür. Ermənistan indi də Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd bölgəsində, Arazdəyəndə ABŞ şirkəti ilə birgə iri metallurgiya zavodunu inşa etmək niyyətindədir. Bu da Naxçıvan üçün ekoloji təhdid, ekoloji terror anlamına gəlir. Mediada məsələ işıqlandırılır. Dövlət də planlarına uyğun olaraq müvafiq addımlar atacaq".

**Nizam Məhərrəmov,**
**BDU-nun Jurnalistika fakültəsinin IV kurs tələbəsi**

# Təxribatlar ermənilərin klassik variantıdır

## Ermənistanın atdığı bütün addımlar himayədarlarının onlara verdiyi təlimat və tapşırıq əsasında reallaşır

**Ermənistan Silahlı Qüvvələri Naxçıvan istiqamətində ardıcıl təxribatlar törədir. Ötən gün erməni silahlıları Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərimizi minaatanlar da daxil olmaqla iriçaplı silahlardan atəşə tutublar.**



Müdafiə Nazirliyindən verilən açıqlamaya görə, ordumuzun bölmələri tərəfindən dərhal cavab tədbirləri görülüb. Qeyd olunub ki, bölgədə vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Azərbaycan Xarici İşlər Nazirliyi də İrəvana çağırış edib. Vurğulanıb ki, Ermənistan tərəfi son zamanlar daha da artan təcavüzkar ritorikasından əl çəkməli, bölgədə gərginliyi artıran addımlara son qoymalıdır.

**Türkiyənin Azərbaycandakı keçmiş hərbi attaşesi, general Yücel Karauz "Şərq"ə açıqlamasında bildirib ki, ermənilərin görə bildiyi "ən gözəl" iş təxribat törətmək, pozuculuq etməkdir. Ekspertin sözlərinə görə, Ermənistan bu təhlükəli missiyasını israrla həyata keçirməkdədir:** "Ermənistana müstəqil bir dövlət kimi yanaşmaq lazım deyil. İrəvanın arxasında "day-day"ları, "abilər" var. Ermənistanın atdığı bütün addımlar himayədarlarının onlara verdiyi təlimat və tapşırıq əsasında reallaşır. Məqsəd bölgədə gərginlik yaratmaqla Azərbaycanı nəyəsə təhrik etmək və rəsmi Bakını "günahkar" çıxartmaqdır. Azərbaycanı dünya ictimaiyyətinə "sülh danışıqlarından qaçan" tərəf kimi göstərməyə çalışırlar. Paşinyan hökumətinin də səhər-axşam fərqli fikirlər bəyan etməsi, rəsmilərin ziddiyyətli açıqlamaları bununla bağlıdır. Moskvada bir cür davranırlar, Brüsseldə, Vaşinqtonda ayrı cür hərəkət edirlər. Bu, ermənilərin klassik variantıdır. Bir yandan Paşinyan "Qarabağ Azərbaycan ərazisidir" deyir, Türkiyə və Azərbaycanla əməkdaşlıqdan danışır. Digər tərəfdən isə əsassız iddialarla rəsmi Bakı ittiham olunur. Yaxud da sərhəddə, o cümlədən Qarabağda təxribatlar törədilir".

Y.Karauz vurğulayıb ki, Azərbaycan Ordusu erməni tərəfindən atılan hər bir gülləyə misliylə qarşılıq vermək iqtidarındadır: "Rəsmi Bakı bütün sülh platformalarında da öz maraqlarını qətiyyətlə müdafiə etməkdə, haqlı mübarizəsini davam etdirməkdədir. Bu siyasət həm hərb meydanında, həm də diplomatik sferada uğurla həyata keçirilməkdədir. 2023-cü ildə ermənilərin son çırpınışlarına şahidlik edəcəyik. Ancaq Azərbaycanın da səbrinin sonu var".

**İsmayıl Qocayev**

# Skarlatina yoluxucu xəstəlikdir

## Geniş yayılmasa da, valideynlər diqqətli olmalıdır

**Son günlər uşaqlar arasında skarlatina virusu yayılıb. Yüksək qızdırma və səpkilərlə müşahidə edilən xəstəliyi valideynlər qızılca və allergiya ilə səhv salırlar.**

**Pediatr Nigar Abdullayeva isə "Şərq"ə açıqlamasında deyib ki, A qrup beta-hemolitik streptokokklar tərəfindən törədilən skarlatina infeksion xəstəlikdir. 3-7 yaş arası uşaqlarda daha cox rast gəlinir:**

"Xəstəlik hava-damcı yolu, çirklənmiş məişət əşyaları ilə bulaşa bilər. Skarlatinanın ilk əlamətləri yüksək qızdırma, titrəmə, boğaz ağrısıdır. Müayinədə əsnək və badamcıqlar qırmızı olur, damaqda isə petexiyalar görünür. Streptokok tonzilliti, faringitin başlamasından 2-3 gün sonra bədəndə səpgilər yaranır. Skarlatina üçün hiperemiyalaşmış dəri fonunda xırda nöqtəşəkilli (qaz dərisi) səpkilər xarakterikdir. Səpkilər sıx yerləşdiyindən yanaqlar al qırmızı olur, burun-dodaq üçbucağı isə avazıyır. Büküş nahiyələrində Pastia əlaməti olur. Səpkilər 4-5 gün içində solur və bədənin müxtəlif nahiyələrində kəpəkli qabıqlanmalar yaranır, xüsusilə əl, ayaqda daha qabarıq görünür. Dilin üzəri öncə ağ-bozumtul ərplə örtülür. Xəstəliyin 5 ci günü dil ərpdən tamamilə təmizlənmiş olur, parlaq al qırmızı rəng alır, üzərində məməciklər şirin, buna "çiyələk dili" deyilir.

Böyük yaşda uşaqlar, təkrari streptokokk infeksiyası keçirənlərdə, tipik dəri səpkiləri olmur, yalnız boğaz ağrısı ola bilər".

Pediatrın sözlərinə görə, xəstəlik ağırlaşarsa, qlomerulonefrit, kəskin revmatik qızdırma, miokardit, pnevmoniya, meningit, artrit, otit, sinusit, mastoiditə səbəb olur. Skarlatinanın müalicəsində mütləq şəkildə antibiotiklər istifadə olunmalıdır. Antibiotiklər 10-14 gün müddətinə təyin olunur və sadalanan ağırlaşmaların qarşısını alır. Antibiotik qəbulundan 24 saat sonra xəstə yoluxdurucu deyil: "Skarlatina qızılca və allergiya səpkiləri ilə qarışıq salınır. Xəstəliyin diaqnozu boğazdan alınan yaxma ilə qoyulur. Yaxma alındıqdan sonra mütləq antibiotikə başlanılmalıdır. Bu xəstəlikdə əsas məsələ antibiotikin 10 gün verilməsinin mütləq olmasıdır. Çünki müalicə tam edilməzsə və ya gec başlanarsa, Kəskin revmatizma qızdırması adlanan xəstəliyi ilə ağırlaşma olur. Ona görə də 3-5 gündən sonra şikayətlər azalsa da, müalicə tam davam etdirilməlidir ki, gələcəkdə bu dediyimiz ehtimal olmasın. Bundan əlavə nefrit kimi ağırlaşma da yarana bilər. Bu zaman da sidikdə qanın olması və böyrək funksiyalarının pozulması baş verir. Ona görə bu xəstəliyin vaxtında diaqnozunun qoyulması və müalicəsinin tam şəkildə edilməsi çox vacibdir.

Bu xəstəlik zamanı qanda ASO dediyimiz dəyər də yüksəlir. Uzun müddət, hətta 1 il qədər qanda belə yüksək qala bilir. Bu göstərici də təkbaşına revmatizma və s. kimi xəstəliyi göstərmir. Yəni ASO-ya baxılıb, qanda yüksəkdir, uşaqda isə heç bir şikayət yoxdursa, revmatizma və ya streptakok vardır deyib müalicələr yazılması düzgün deyil. Çünki qeyd etdiyimiz kimi, bu dəyər qanda uzun müddət yüksək ola bilər".



Xəstəliyin ilk əlamətləri yüksək qızdırma, titrəmə, boğaz ağrısıdır

**"Mövsümi xəstəlik olmasa da, skarlatinaya ara-sıra rast gəlinir. Yayılıb deməzdim, amma valideynlər diqqətli olmalıdır. Çünki skarlatina yoluxucu xəstəlikdir".** *Bu sözləri isə "Şərq"ə açıqlamasında pediatr Vaqif Qarayev bu günlərdə skarlatinaya yoluxmuş uşaqların sayında artım olması barədə yayılan xəbərlərə münasibət bildirərkən söylədi*. Pediatr qeyd etdi ki, skarlatinaya adətən azyaşlı və ortayaşlı uşaqlar yoluxur. Bu da uşaq bağçaları və orta məktəblərdə uşaqların bir-biriylə yaxın təmasda olmasının nəticəsidir. Skarlatina yoluxucu xəstəlik olduğundan ümumi istifadə edilən məkanlarda təhlükə daha böyükdür.

Skarlatina streptokok infeksiyasının yaratdığı yoluxucu - infeksion xəstəlikdir. İnfeksion xəstəlik səbəbindən xırda səpkilər üzdən başlayaraq bütün bədənə - boğaza, qollara, qarın nahiyəsinə, ayaqlara yayılır. Ağız və burun ətrafı istisna olmaqla bütün bədəndə qırmızı səpkilər yaranır. Törədicisi streptokok bakteriyası hesab edilən infeksion xəstəlik əllərdə, barmaqlarda şişmələrə də səbəb ola bilir. Bir müddət sonra uşaqların dillərində qıpqırmızı səpkilər yaranır, dil sanki moruğu xatırladır, badamcıqlara yaxın isə dilin üzərində ağ ərp əmələ gəlir. Boğazda şişkinlik, badamcıqların iltihabı skarlatinanın əlamətidir.

İnfeksion xəstəlik dəridə soyulmalara da səbəb ola bilər. Xüsusən 5-15 yaş arası uşaqlarda çox rast gəlinir. Xəstəlik hava-damcı yoluyla yayılır. İnfeksiyanı törədən streptococcus pyogenes bakteriyasıdır. Yaxın təmasda olan insanlar asanlıqla yoluxa bilər. Dondurma, süd, gündəlik istifadə edilən ərzaqlar, yumurta və yumurtadan hazırlanmış qidalar mikrobla çirkləndikdə streptokok infeksiyasına səbəb ola bilər. Xəstəliyin əlamətləri yüksək hərarət və boğaz ağrısı, limfa düyünlərinin böyüməsi, tez-tez qaytarmadır. Xəstəliyin əlamətləri müşahidə olunduqda dərhal həkimə müraciət edilməlidir. Xəstəliyin gedişatında ağırlaşmalar müşahidə olunarsa, xəstə pediatr ilə yanaşı, infeksionist və kardioloq nəzarətində olmalıdır. Skarlatina bakterial xəstəlik olduğu üçün müalicəsi antibiotiklə aparılır.

**Məlahət, Şəymən**

# Pulsuz çimərliklər istifadəyə veriləcək

## Əhalinin aztəminatlı hissəsi bunu çoxdan gözləyirdi

**Paytaxtın Şıx, Goradil, Novxanı, Buzovna, Pirşağı və Sahil qəsəbələrində ictimai çimərliklər - ödənişsiz, pulsuz çimərliklər istifadəyə veriləcək. Əhalinin aztəminatlı hissəsi bunu çoxdan gözləyirdi. İctimai çimərliklər İDEA İctimai Birliyinin təşəbbüsü və dəstəyi ilə yaradılıb.**

İndiyədək baxımsız vəziyyətdə olan sahilyanı ərazilərdə yaradılan pulsuz ictimai çimərliklərdə təmizlik, abadlıq və digər hazırlıq işləri tamamlanıb və ziyarətçilərin istifadəsinə hazır vəziyyətə gətirilib. Sakinlərin rahat və təhlükəsiz istirahəti üçün çimərlik ərazilərinə Fövqəladə Hallar Nazirliyinin xilasetmə məntəqələri, tələbata uyğun miqdarda kölgəliklər, soyunub-geyinmə və duş kabinləri, sanitar qovşaqlar, söhbətgahlar, oturacaqlar və şezlonqlar, zibil konteynerləri yerləşdirilib, futbol və voleybol meydançaları yenilənib və istifadə üçün hazır vəziyyətə gətirilib. Yaradılan bütün imkanlar ödənişsiz istifadə üçün nəzərdə tutulub. Bu il həmçinin Sahil çimərliyində əlilliyi olan şəxslərə müyəssərliyin təmin edilməsi məqsədilə lazımi şərait yaradılıb. Belə ki, sözügedən çimərlikdə hərəkəti məhdud olan şəxslərin suya və çimərlikdəki məntəqələrə maneəsiz gedə bilməsi üçün xüsusi yollar və pandusla inşa edilib, çimərlik ərazisinə ən yaxın dayanacaq əlilliyi olan şəxslər üçün xüsusi nişanlama ilə ayrılıb. Qeyd edək ki, bu infrastruktur ölkədə ilk dəfə olaraq Şıx çimərliyində yaradılıb və gələcək illərdə digər ictimai çimərliklərdə də yaradılması nəzərdə tutulur. Nümunəvi ictimai çimərliklərin sayının artırılması cəmiyyətdə ekoloji və sosial məsuliyyətin təşviq edilməsinə yönəlib. İctimai çimərliklərin istifadəyə verilməsi xəbərini paylaşan İDEA İctimai Birliyi hamıya xoş yay istirahətləri arzulayıb, hər kəsi təbiətin bəxş etdiyi gözəlliklərdən və yaradılan şəraitdən hər zaman zövq ala bilmək üçün sahillərin təmizliyinə diqqət etməyə, ətraf mühitin təmizliyinə riayət etməyə çağırıb.



Eyyub Hüseynov: "Bu o deməkdir ki, Xəzər dənizi sahili boyunca böyük bir məsafədə təmizlik işləri aparılıb, ekoloji mühit normallaşıb"

**Azad İstehsalçılar Birliyinin sədri Eyyub Hüseynov "Şərq"ə açıqlamasında ictimai çimərliklərin istifadəyə verilməsini alqışladığını dedi:**

- Bu, çox yaxşı xəbərdir. Məlumdur ki, sahilyanı zonalarda ödənişli çimərliklər çoxdur. Ödənişli çimərliklərdən heç də hamı istifadə edə bilmir. Avtomobillərin dayanacaqda saxlanmasına da pul alırlar, çətirlər, oturacaqlar üçün də. Halbuki bunlar çimərliyin vacib elementləri hesab edilir. İndi ictimai çimərliklər istifadəyə verilirsə, əlbəttə, bu, sevindiricidir. İctimai çimərliklər dünənədək ən çirkli hesab edilən, ekoloji çirklənməyə məruz qalmış ərazilərdə açılır. Bu o deməkdir ki, Xəzər dənizi sahili boyunca böyük bir məsafədə təmizlik işləri aparılıb, ekoloji mühit normallaşıb. Həm ekoloji mühitin normallaşması, dənizin təmizlənməsi, həm də əhalinin çimərliklərdən pulsuz istifadə etməsi ictimai məmnunluq yaradan haldır.

**Məlahət Rzayeva**




# 4 manatlıq dərman 10 manat oldu

## Azərbaycanda 1 ildir yoxa çıxmışdı

**Bütün nevroloqların təyin etdiyi Türkiyə istehsalı məşhur Ataraks preparatı antihistamin təsirli olsa da yuxusuzluq və sakitləşdirici terapiyada da istifadə edilir. Kifayət qədər yaxşı mənimsənilən müasir preparat nevroloqlarla yanaşı, psixiatr, terapevt, cərrah və digərlərinin də təyin etdiyi dərmandır.**

"Medicina" xəbər verir ki, Atarax 7 aydan yuxarı idi ki, apteklərdə tapılmırdı və bu defisit həkimləri, xəstələri narahat edirdi.

Nəhayət ki, Atarax apteklərə qayıdıb, amma 3.70 qəpik, 4 manata olan dərman 10 manata satışa çıxarılıb. Əzcaçılar tapılmadığı üçün indi dərmanın bu qiymətə gəldiyini bildirdi.

Sadə bir preparatın bir neçə ay içində 100 faizdən çox bahalaşması Azərbaycanda dərman monopoliyası və ya hoqqabazlığı və ya yarıtmazlığının daha bir nümunəsidir.

Məsələ ilə bağlı nə Səhiyyə Nazirliyi, nə Analitika Ekspertiza şöbəsi, nə də rəsmi qurumlara müraciət ünvanlamadım. Çünki onların illərdir mətbuatın başını piyləyib dolandırıcı və lazımsız cavablarını yazmaqdan bezmişəm.

Sadəcə yazdım: 3 manatlıq dərman 10 manat olub. Dərman Türkiyədə manatla cəmi 3 manatadır.

**Elanlar**

Bakı Biznes Universitetinin 4-cü kurs tələbəsi Mehdiyev Qafqaz Rasim oğluna məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.

"Gerson Retail" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN 1006865691) ləğv olunur. Bununla əlaqədar kimin nə iddiası varsa xahiş olunur (050) 352-85-60 nömrəsi ilə əlaqə saxlasın.

"Lottos FC" MMC (VÖEN 1006865711) ləğv olunur. Bununla əlaqədar kimin nə iddiası varsa xahiş olunur (050) 352-85-60 nömrəsi ilə əlaqə saxlasın.

"Smarttech FC" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN 1505358121) ləğv olunur. Bununla əlaqədar kimin nə iddiası varsa xahiş olunur (050) 352-85-60 nömrəsi ilə əlaqə saxlasın.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA40060380300022 5AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 1528



## "Survivor"un qalibi bəlli oldu

### Nefise Karatay bunu bacaran üçüncü qadın oldu

**Rəhbəri və aparıcısı Acun Ilıcalı olan Türkiyənin məşhur "Survivor 2023" yarışmasının qalibi bəlli olub.**

Yarışın qalibi Nefise Karatay seçilib. O, finalda Özgür Tetiklə mübarizə aparıb.

*Qeyd edək ki, Nefise Merve Oflaz və Nisa Bölükbaşı-dan sonra yarışı qazanan 3-cü qadın yarışmacı olub.*

## Aclıq təriqəti üzvləri həbs edildi

### Belə adamları 2 il həbs cəzası gözləyir



**Keniyada müridlərini ac qalmağa təhrik edərək onlara guya İsa peyğəmbərə qovuşacaqlarını vəd edən təriqət başçısının ifşasından sonra da aclığı davam etdirməkdə qərarlı olanlar həbs edilir.**

"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, təriqət üzvlərinin ölümünə ac qalmalarının səbəb olduğu müəyyənləşdikdən sonra aparılan araşdırmalar nəticəsində təriqət başçısı, "Good News International" Kilsəsinin keşişi Paul Makkenzi həbs edilib. Ardınca da aclığa məhkum edilmiş təriqət üzvləri toplaşdıqları düşərgədən çıxarılaraq sığınacağa yerləşdirilib. Lakin sığınacaqda üzvlər yenə aclığı davam etdirməyə cəhd göstərib, yeməkdən imtina ediblər. Belə olduqda yerli polis təriqət üzvlərindən 65 nəfəri intihara təşəbbüs ittihamıyla həbs edib. Keniyada özünə qəsd cinayət əməli hesab edilir. Və buna təşəbbüs edənlər cinayət məsuliyyətinə cəlb edilir. Belə adamları 2 il həbs cəzası gözləyir. Sajahanadi Xilasetmə Mərkəzində yeməkdən imtina edən 65 nəfər barəsində də cinayət işi açılıb və onlar həbsxanaya göndərilib. Prokurorluq bu insanların həmçinin psixoloji müayinədən keçirilməsini tələb edib. "Aclıq təriqəti" ilə bağlı istintaq bu ilin aprel ayında başlayıb. 260 nəfərin öldüyü müəyyənləşib, 613 nəfər hələ də itkin sayılır və axtarışdadır. Təriqət başçısı keşişin məhkəməsi isə təxirə salınıb.

**Məlahət**

## Ronaldonun 1.5 milyonluq saatı

### Narkobaronda da var




**İstanbulda narkotacirlərə qarşı xüsusi əməliyyat keçirilib.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, beynəlxalq narkoticarət şəbəkəsinə qarşı İstanbulla yanaşı Muğla, Antalya, Ankara və Aydında əməliyyat aparılıb və 1 milyard lirə dəyərində narkotik maddə satışından əldə edilmiş mallar, o cümlədən 100 milyon lirə dəyərində zinyət əşyası müsadirə edilib. 23 nəfər saxlanılıb. Yayılan məlumata görə, "ulduz" futbolçu Cristiano Ronaldonun 1,5 milyon dollarlıq saatının eynisi narkobaronda tapılıb. Bu saatdan cəmi 6 ədəd istehsal edildiyi bildirilir. Deməli, 6 ədəd saatdan biri məhz narkobaronda imiş.

**Məlahət**

## 24 ildir qarajda saxlanılır

### Mançonun avtomobili hələ Belçikadan gətirilməyib





**Türkiyənin əfsanəvi müğənnisi, Anadolu rok və pop ustadı Barış Mançonun avtomobili Belçikada saxlanılır.**

"Qafqazinfo" xəbər verir ki, B. Manço vəfat etməmişdən əvvəl onu özü Belçikada qoyub ölkəsinə qayıdıb.

Artıq 24 ildir qarajda saxlanılan avtomobil hələ də Türkiyəyə gətirilməyib.

*Qeyd edək ki, Barış Manço yanvarın 2-si 1943-cü ildə İstanbulda anadan olub. O, fevralın 1-i 1999-cu ildə İstanbulda vəfat edib.*

## Dünyada su epidemiyası ola bilər



**Ukraynada Su Elektrik Stansiyasının partlamasından sonra ÜST su yoluxucu xəstəliklərin potensial epidemiyası barədə narahatlığını ifadə edir.**

"Medicina" xəbər verir ki, ÜST rəsmisi Jarno Habicht bu barədə belə deyib: "ÜST epidemiyalara cavab verməyə hazırdır.Su ilə ötürülən xəstəliklərlə bağlıregionda maarifləndirilmə aparılmalı və işlər görülməlidir". Ərazidə vəba əleyhinə də sanitar tədbirlər həyata keçirilməlidir.



# 8 milyard dollar sərmayə qoyub

### Səudiyyə Ərəbistanı gözünü oyun və elektron idman sektoruna dikib

**Səudiyyə Ərəbistanı neftdən asılılığı azaltmaq strategiyası çərçivəsində oyun sektorunda fəaliyyət göstərən şirkətlərə son 18 ayda 8 milyard dollar sərmayə qoyub.**

"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, SƏ dünya neft ehtiyatlarının 5-də 1-nə sahib ölkədir. Bununla belə gözünü oyun və elektron idman sektoruna dikib. Səudiyyə Ərəbistanı Maliyyə Fondunun başqanı, vəliəhd şahzadə Muhammed bin Salman "Savy Games Group"a 38 milyard dollar maliyyə yardımı ayrıldığını deyib. Fondun özü 650 milyard dollar sərmayəyə malikdir. Və bunun böyük bir hissəsini də oyun sektoruna yönəltməyi planlaşdırırlar. "Savy Games Group"un sərmayələri arasında Çinli VSPO, İsveçdən EMBRACER Group və ABŞ-dən "Scopely" də var. 2030-cu ilədək ölkədə 250 oyun firmasının fəaliyyət göstərməsi, 39 min yeni iş yeri imkanın yaradılması hədəflənir. SƏ əhalisinin 70 faizi 35 yaşdan aşağı olanlar təşkil edir. Ona görə də internet oyunlarına və e-idmana maraq böyükdür. Şahzadə Muhammed bin Salman özü də oyun azarkeşidir.

**Məlahət**



# Dərmanlı qarpız və yemiş

### Qaraciyər və böyrəklərin düşmənidir





**Yay aylarında qarpız və yemiş giləmeyvələrin şahı hesab edilir. Lakin vaxtından öncə dərmala böyüyən bu giləmeyvələr orqanizmə mənfi təsir göstərir.**

"Medicina" xəbər verir ki, təəssüf ki, nitratların və müxtəlif böyümə stimulyatorlarının yüksək tərkibinə və daha sürətli böyüməsi üçün əkin zamanı istifadə edilən dərman vasitələrinə görə orqanizmə zərər verə bilər.

Vaxtından əvvəl yetişən bu giləmeyvələrdə nitratların çox yüksək konsentrasiyası var;

Gübrələrin tərkibində olan nitratlar (nitrat turşusu duzları) orqanizmə daxil olur.

Mədə-bağırsaq traktında mikrofloranın təsiri altında nitratlardan nitritlər əmələ gəlir.

Nitritlər mədə və bağırsağın selikli qişasını qıcıqlandırır (ürəkbulanma, qusma, ishal yaradır).

Qaraciyər və böyrəklərdə metalların ağır yığılmasına kömək edirlər.

Nitritlər hemoglobindəki dəmiri oksidləşdirərək onu methemoqlobinə çevirir. Metemoglobinə çevrilərək, oksigeni daşımaq qabiliyyətini itirir, bunun nəticəsində bədənin hüceyrələrində və toxumalarında oksigen aclığı - hipoksiya inkişaf edir.

Qarpızın tərkibindəki nitratlar qida maddələrinin sovrulmasına mane olur (C vitamininin sorulması 3 dəfə azalır).

Nitrat konsentrasiyası portativ nitrat sayğacı ilə yoxlanıla bilər. Qarpızlarda norma 1 kq üçün 60 mq-dır.

Yolların yaxınlığından maşında satılan qarpız almayın. Qovunlar işlənmiş qazların tərkibindəki ağır metalları tez mənimsəyir.

**Nitratsız qarpızın əlamətləri:**

sarı ləkənin olması (qarpızın bağda yatdığı tərəf);

qarpız qabığının zolaqlarının açıq rəngi;

Dırnaqla cızıldıqda, qabıq asanlıqla soyulmalıdır.

## CeyLonun fotoşopu müzakirə yaratdı

### İfaçının son paylaşdığı şəkillər izləyicilər tərəfindən tənqid olunub



**Amerikalı müğənni-aktrisa Cennifer Lopez sosial media hesabındakı paylaşımı ilə diqqət çəkib.**

Axşam.az xəbər verir ki, ifaçının son paylaşdığı şəkillər izləyicilər tərəfindən tənqid olunub. Onlar CeyLonun fotolarda ayağının boyunu foyoşopla uzatdığını iddia ediblər.

Həmçinin, izləyicilər alkoqolu tərgitdiyini açıqlayan Lopezin spirtli içkini əlində tutmasını da qınayıblar.

*Qeyd edək ki, müğənninin əynindəki libas "Cult Gaia"dandır və qiyməti 1946 dollardır (təxminən 3 311 manat).*

## Aktrisa restorana buraxılmadı

### Buna səbəb onun açıq-saçıq geyimi olub



**Aktrisa Zendayanın (Zendaya Koulman) İtaliyada xoşagəlməz hadisə ilə üzləşib.**

Axşam.az xəbər verir ki,dostları ilə Romadakı restoranların birində masa sifariş edən aktrisanı məkana buraxmayıblar. Buna səbəb isə onun açıq-saçıq geyimi olub.

Məyus olan aktrisa dostları ilə yaxında yerləşən pizza restoranına gedib.

## Göz sağlamlığıdır

### Hər gün normasında yumurta yemək olar



**Əvvəllər yumurtanın tərkibində yüksək xolesterol olması problem hesab edilsə də, bu gün onun qanda xolesterinin səviyyəsinə təsiri sübut olunmayıb.**

Buna görə də, insanların çoxu yumurtanı ürək sağlamlığına zərər vermədən orta miqdarda qəbul edə bilər.

"Medicina" xəbər verir ki, həkim - diyetoloq İqor Strokovun sözlərinə görə, yumurtanın tərkibi bədəninizin ehtiyac duyduğu bütün vacib amin turşularını ehtiva edir.

"O yüksək keyfiyyətli zülal, vitamin B12, vitamin D, A vitamini, dəmir və bir çox digər vacib qida maddələrinin əla mənbəyidir. Bundan əlavə, yumurtanın tərkibində omeqa-3 yağ turşuları kimi sağlam yağlar da var.

Xolesterol. Qida xolesterolunun qanda xolesterinin səviyyəsinə yalnız məhdud təsir göstərdiyi sübut edilmişdir. Əksər insanlar ürək sağlamlığına xələl gətirmədən orta miqdarda yumurta yeyə bilərlər.

Çəki itirmək. Yumurta ilə səhər yeməyi, yüksək karbohidratlı səhər yeməyi ilə müqayisədə daha uzun toxluq hissi yaradır.

Yumurtanın tərkibindəki protein iştahı tənzimləməyə və yemək istəyini azaltmağa kömək edə bilər.

Göz sağlamlığı. Yumurtanın tərkibində lutein və zeaksantin də var. Bunlar gözləriniz üçün vacib olan və yaşa bağlı makula degenerasiyası riskinizi azalda bilən antioksidantlardır".